Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

24 DEKABR 2019-cu il

№ 229 (4127)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

■ səh. 4-5 ■

# ÜÇ DÖVLƏTİN XİN-dən AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNƏ DƏSTƏK - STATUS-KVO DƏYİŞDİRİLMƏLİDİR...



■ səh. 3 ■

## Müstəqil Azərbaycanın tarixində 5-ci bələdiyyə seçkisi də uğurla yekunlaşdı

Böhran Qrupundan Qarabağətrafı rayonlarımızın qanunsuz məskunlaşdırılması barədə şok xəbər - Qubadlıda bir qarış da yer qalmayıb...

■ səh. 5 ■

Dağlıq Qarabağ üzrə danışıq sənədləri açıldıqca İrəvana beynəlxalq təzyiqin yeni dalğası başlayır

■ səh. 9 ■

Namizədliyini yenidən irəli sürən deputatların arqumentlərinə baxın...

■ səh. 6 ■

İqbal Ağazadə ilə Rauf Arifoğlu eyni dairədən üz-üzə gəldilər, Araz Əlizadə aradan çıxarıldı...

■ səh. 7 ■

Milli pambıqçılıqda iplik və yüngül sənaye müəssisələri problemi...

■ səh. 11 ■

Bakıda "Şanxay" deyilən yaşayış yerinin söküntüsünü yarımçıq saxlayanlar sakinləri belə təhlükələrə atıblar - sahibsiz itlər, ilanlar...

■ səh. 13 ■

Azərbaycanda 10-a yaxın Ahıllar Mərkəzi yaradılacaq - bilirsinizmi bu nə deməkdir...

■ səh. 15 ■

Şou müğənnilər hətta öz həmkarlarının da ziyafətlərinə fantastik qiymətlərlə gedir

■ səh. 14 ■




Təkrar namizədlik verən deputatların əmlaklarının «alabəzək» siyahıları - seçicilər hansı reaksiyanı verəcəklər...

■ səh. 6 ■

Bu il pambıqdan 111 milyon dollar gəlir - pambığı 1 milyon tona çatdırmağı bacarmayan icra başçıları olmasaydı...

■ səh. 10 ■



ABŞ Rusiyanın «Şimal qaz axını»nı dayandırdı, Avropanın Azərbaycan qazına ehtiyacı artdı...

■ səh. 8 ■

■ səh. 12 ■

Şəhər, rayon icra hakimiyyətlərinin fəaliyyətinə ictimai nəzarət şuraları - İdeya necədir...



■ səh. 12 ■

Yeni bələdiyyələr də indikilər kimi nüfuzsuz ola bilərmi...



■ səh. 13 ■

Azərbaycanın "Orqanik Xəritəsi"...



■ səh. 14 ■

Cümhuriyyət qurucularının ev muzeyləri hələ də yaradılmayıb



■ səh. 15 ■

Hələ yanmamış böyük ticarət mərkəzləri "gözü çıxmış qardaşlarından" nəsə öyrəndimi...



# Dünya liderləri doğum günü münasibətilə Prezident İlham Əliyevi təbrik etdilər



## Prezident İlham Əliyev yerli jurnalistlərə ilin yekunları ilə əlaqədar müsahibə verdi...

**Prezident İlham Əliyev yerli jurnalistlərə ilin yekunları ilə əlaqədar müsahibə verib.**

Məlumata görə, müsahibə dekabrın 23-də saat 20.30-da Azərbaycan Televiziyası ilə yayımlanıb.

## Prezident ünvanlı sosial yardım alan hər bir ailəyə 100 manat Yeni il hədiyyəsi etdi

**Prezident İlham Əliyev aztəminatlı ailələrə birdəfəlik yardım göstərilməsi haqqında Sərəncam imzalayıb.**

Trend-in məlumatına görə, sərəncamda qeyd edilir ki, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə 2019-cu il 30 dekabr tarixinə ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə 100 manat məbləğində birdəfəlik yardım ödənilsin. Birdəfəlik yardımın maliyyələşdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində ünvanlı dövlət sosial yardımı üçün nəzərdə tutulmuş vəsaitdən 7,6 milyon manat ayrılsın.

Maliyyə Nazirliyi bu Sərəncamın 2-ci hissəsindən irəli gələn məsələləri həll edəcək.

Əmək və Əhalinin Sosial Müdafiəsinə tapşırılır ki, Nazirliyi birdəfəlik yardımın ünvanlı dövlət sosial yardımı alan ailələrin hesablarına köçürülməsini təmin etsin.

Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll edəcək.

## Veb-kameraların işlək vəziyyətdə olmaması ilə bağlı məlumatlar yanlış çıxdı




**Sosial şəbəkələrdə bəzi məntəqələrdə veb-kameraların işlək vəziyyətdə olmaması ilə bağlı yayılan məlumatlar əsassızdır. Bunu Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov deyib.**

Onun sözlərinə görə, bu məlumatı Azərbaycandan kənarda yaşayan bloqerlərdən biri yayıb: "Bu məsələ aydınlaşdırılıb. Səhv etmirəmsə, həmin kameranın istifadəsi ilə bağlı istifadəçinin problemi olub. Kamera görüntüləri istifadə olunmazdan əvvəl sistem yenilənməlidir. Amma bu edilməyib".

M.Pənahov əlavə edib ki, hazırda seçki məntəqələrində 1000 veb-kamera var: "Onların hamısı işlək vəziyyətdədir. Özüm şəxsən əksəriyyətini yoxlayıram. Amma bundan MSK-nın fəaliyyətinə kölgə salmaq üçün istifadə edilməyə çalışılıb. Vətəndaşlar sağ olsun ki, özləri bu məlumata operativ reaksiya veriblər".

**Vladimir Putin…**

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Prezident İlham Əliyevə ad günü münasibətilə göndərdiyi təbrik məktubunda deyilir:

"Sizin rəhbərliyinizlə Azərbaycan sosial-iqtisadi inkişaf yolunda inamla irəliləyir, beynəlxalq aləmdə mövqelərini möhkəmləndirir. Ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsinə Sizin şəxsi töhfənizi çox yüksək qiymətləndiririk.

Bizim aramızda yaranmış etimad və qarşılıqlı anlaşma mənim üçün həqiqətən çox qiymətlidir. Ümidvaram ki, Rusiya və Azərbaycan xalqlarının rifahı naminə birgə səmərəli işimiz davam edəcəkdir".

**Bolqarıstan Prezidenti…**

Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin Prezident İlham Əliyevə ad günü münasibətilə göndərdiyi təbrik məktubunda deyilir:

"Bu xoş fürsətdən istifadə edərək Zati-alinizin diqqətinə çatdırmaq istəyirəm ki, bizim birgə səylərimiz nəticəsində ölkələrimiz arasındakı strateji əməkdaşlıq xalqlarımızın rifahı naminə daha da inkişaf edəcək və möhkəmlənəcəkdir".

**Qurbanqulu Berdiməhəmmədov…**

Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədovun Prezident İlham Əliyevə ad günü münasibətilə göndərdiyi təbrik məktubunda deyilir:

"Bu yaxınlarda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Sammiti çərçivəsində Sizinlə görüşümü böyük səmimiyyətlə xatırlayıram. O vaxt etimada əsaslanan açıq danışıqlar zamanı Türkmənistan-Azərbaycan dostluğunu və əməkdaşlığını bundan sonra da inkişaf etdirməyə qarşılıqlı səyimiz və buna hazır olmağımız bir daha təsdiqləndi. Qəti əminəm ki, ölkələrimiz arasında qardaşlıq münasibətləri birgə səylərimizlə xalqlarımızın rifahı naminə daha da möhkəmlənəcək.

Bu xoş fürsətdən istifadə edərək, Sizə səmimi qəlbdən möhkəm cansağlığı, şəxsi xoşbəxtlik və firavanlıq, Azərbaycan Respublikasının qardaş xalqının rifahı naminə bütün təşəbbüslərinizdə və səylərinizdə yeni uğurlar diləyirəm".

**Tacikistan Prezidenti…**

Tacikistan Respublikasının Prezidenti Emomali Rəhmonun Prezident İlham Əliyevə ad günü münasibətilə göndərdiyi təbrik məktubunda deyilir:

"Bu gün dost Azərbaycan Sizin rəhbərliyinizlə sosial-iqtisadi inkişaf yolunda inamla irəliləyir, xalqın rifahının durmadan yüksəldilməsinə yönəlmiş mühüm dəyişikliklər həyata keçirir. Sizin müdrik siyasətiniz sayəsində Azərbaycanın beynəlxalq arenada nüfuzu gündən-günə daha da möhkəmlənir.

Əminəm ki, sıx etimada əsaslanan siyasi dialoqumuz bundan sonra da Tacikistan ilə Azərbaycan arasında dostluq, qarşılıqlı hörmət və əməkdaşlıq münasibətlərinin xalqlarımızın maraqlarına uyğun surətdə hərtərəfli inkişafına və dərinləşməsinə şərait yaradacaq".

**Rusiya Federasiyası Hökumətinin sədri Dmitri Medvedev…**

Rusiya Federasiyası Hökumətinin Sədri Dmitri Medvedevin Prezident İlham Əliyevə ad günü münasibətilə göndərdiyi təbrik məktubunda deyilir:

"Rusiya ilə Azərbaycan arasında dostluq və tərəfdaşlıq münasibətlərinin inkişafına Sizin böyük şəxsi töhfənizi qeyd etmək istərdim. Sizin daimi diqqətiniz sayəsində iqtisadi-ticari və investisiya sahələrində qarşılıqlı əlaqələr möhkəmlənir, energetika, sənaye, yüksək texnologiyalar, elm, mədəniyyət və başqa sahələrdə iri müştərək layihələr həyata keçirilir".

**Qırğız Respublikasının Prezidenti…**

Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekovun Prezident İlham Əliyevə ad günü münasibətilə göndərdiyi təbrik məktubunda deyilir:

"Bu xoş fürsətdən istifadə edib, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və firavanlıq arzu edirəm".

**Bolqarıstanın Baş naziri…**

Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisovun Prezident İlham Əliyevə ad günü münasibətilə göndərdiyi təbrik məktubunda deyilir:

"Sizi əmin etmək istəyirəm ki, ölkələrimiz arasındakı səmərəli əlaqələr, fəal siyasi dialoq və xalqlarımızın dostluq münasibətləri gələcəkdə də inkişaf edəcək və dərinləşəcəkdir".

Zati-aliləri, Sizə möhkəm cansağlığı və rifah, ali dövləti vəzifənizdə daha böyük uğurlar diləyir, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm".

# ABŞ, İsrail və Səudiyyənin İranda rejimi devirmək planı(?) ... Hədəf 2021-ci il...

**ABŞ, İsrail, Səudiyyə Ərəbistanı və İran arasında yaşanan böhranla bağlı ortaya yeni bir iddia atılıb.**



Baki-xeber.com xarici mediaya istinadla xəbər verir ki, islahatçılara yaxınlığı ilə tanınan İranlıların Səsi (Nida) Partiyasının Şura sədri Məhəmməd Sadiq Harrazi ABŞ, İsrail və Səudiyyə Ərəbistanının 2021-ci ildə İran rejimini devirməyi planlaşdırdığını iddia edib.

"ABŞ, İsrail və Səudiyyə Ərəbistanı kəşfiyyat xidmətlərinin dəstəklədiyi rejim müxaliflərinin sosial mediadakı fəaliyyətləri diqqətlə araşdırılsa, onların bir planla hərəkət etdiyi görünəcək. İranı bu il yıxmaq fikrində deyillər. Planları rejimi 2021-ci ildə yıxmaq istiqamətində qururlar" - Harrazi deyib.

Harrazi 2021-ci ilin ölkəsi üçün tale ili olacağını ifadə edib:"İran cəmiyyətini xəstə və ya yaralı bir insanla müqayisə etsək (lazımi müalicə görülməzsə), xəstəlik zamanla bütün bədənə yayılacaq. Xəstəlik cəmiyyəti tamamilə təsir altına almış vəziyyətdədir. Böhran düzgün idarə olunarsa problemi aradan qaldırmaq mümkündür. Əks təqdirdə, bu proses belə davam edərsə, "xəstəlik" hökumətin əsas gövdəsinə də keçər və ölkədə sabitliyin pozulmasına səbəb olar".

Benzinin bahalaşmasından sonra baş verən hadisələrin ardından tənqid hədəfinə çevrilən və bəzi qruplar tərəfindən istefası tələb edilən prezident Həsən Ruhani barədə danışan Harrazi ali liderin (Əli Xamneyi) hökumətin getməsinə icazə verməyəcəyini deyib. Mühafizəkar kəsimdə Qüds Qüvvələrinin komandanı Qasim Süleymaninin prezident olacağına dair gözləntilərə gəlincə, Harrazi Süleymaninin prezident kimi yüksək bir post haqda düşünmədiyini deyib.

# Müstəqil Azərbaycanın tarixində 5-ci bələdiyyə seçkisi də uğurla yekunlaşdı

**Dekabrın 23-də Azərbaycanda bələdiyyə seçkiləri keçirilib. Baki-xeber.com xəbər verir ki, respublika üzrə 1606 bələdiyyə üzrə 15156 üzv seçilməsi nəzərdə tutulmuşdu.**



Bələdiyyə seçkisi işğal altındakı 7 seçki dairəsi istisna olmaqla, ümumilikdə, 118 seçki dairəsini əhatə edib. Ümumilikdə, seçkilərdə 41 462 namizəd iştirak edib. MSK sədri Məzahir Pənahovun dekabrın 22-də keçirilən mətbuat konfransında verdiyi məlumata görə, 13 siyasi partiyanın nümayəndələri namizəd kimi qeydə alınıblar.

Namizədlərin 3-də 1-i 13 siyasi partiyanın nümayəndələri, 3-də 2-si isə namizədliklərini özləri irəli sürən vətəndaşlardır.

Seçkini izləmək üçün qeydiyyatdan keçən yerli müşahidəçilərin sayı 52 min 636 nəfər olub. Bələdiyyə seçkilərini izləmək üçün 17 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib.

Gün ərzində açıqlanan rəsmi rəqəmlərə görə, bələdiyyə seçkiləri yüksək seçici fəallığı ilə keçib və seçki baş tutmuş hesab edilir.

Mərkəzi Seçki Komissiyasının İnformasiya Mərkəzi xəbər verir ki, bələdiyyə seçkilərində respublika üzrə seçici fəallığı 32,72 faiz təşkil edib. Belə ki, saat 19:00-a olan məlumata görə, səs vermiş seçicilərin sayı 1 627 064 nəfər təşkil edib. Ümumilikdə, səsvermə üçün siyahıya daxil olmuş seçicilərin sayı 4 972 356 nəfərdir.

Qeyd edək ki, Azərbaycanda ilk bələdiyyə seçkisi 1999-cu ildə keçirilib. Bələdiyyə üzvləri ölkəmizdə 5 ildən bir seçirlər. Hazırkı seçki sayca 5-ci bələdiyyə seçkisidir.

Beynəlxalq təşkilatlar seçki ilə bağlı qənaətlərini və rəylərini artıq açıqlamağa başlayıblar. İlk rəy

MDB Parlamentlərarası Assambleyasından gəlib. Rəy müsbət olub.

MDB Parlamentlərarası Assambleyasının iştirakçısı olan dövlətlərdə demokratiyanın, parlamentarizmin inkişafının və vətəndaşların seçki hüquqlarına riayət olunmasının monitorinqi beynəlxalq institutunun (PAA DİMBİ) Bakı filialının əməkdaşları bələdiyyə seçkilərini müşahidə ediblər. Təşkilatdan verilən məlumata görə, 30-a yaxın seçki məntəqəsində yerli müşahidəçi qismində bələdiyyə seçkilərində səsvermənin təşkili və keçirilməsini müşahidə ediblər. Müşahidə aparılan seçki məntəqələrində heç bir qanun pozuntusuna rast gəlinməyib.

Ümumən rəy və konkret məlumatlar göstərir ki, səsvermə baş tutub, ölkə üzrə seçicilərin mütləq əksəriyyəti seçkidə iştirak edib.

"Bələdiyyə seçkiləri başa çatdı. İnanıram ki, Yeni Azərbaycan Partiyasının namizədləri seçicilərin səslərinin çoxunu qazanaraq yenə də seçkilərin qalibi ola biləcək. Bu inam hər şeydən əvvəl ölkədə uğurla həyata keçirilən Prezident İlham Əliyevin siyasətinə və onun hamı tərəfindən yüksək qiymətləndirilən nəticələrinə əsaslanır. Azərbaycanın böyüyən iqtisadiyyatı, insanların artan rifahı, şəhərlərin və kəndlərin dəyişən və müasirləşən siması, insanlara rahatlıq gətirən infrastruktur layihələri, ordumuzun güclənməsi və sair möhtəşəm nailiyyətlərimiz seçkilərdə qələbəmizin obyektiv əsaslarıdır".









Bu fikirləri Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini - icra katibi Əli Əhmədov deyib.

Əli Əhmədov bildirib ki, Yeni Azərbaycan Partiyasının çoxminli fəallarının, xüsusilə də gənc könüllülərin seçki təşviqatında fəal iştirakını, qələbə naminə göstərdikləri fədakarlığı ayrıca qeyd etmək istəyir: "Qarşıda isə bələdiyyələrə seçilənlərin xalqa ləyaqətlə xidmət etməsi kimi böyük məsuliyyət və vəzifə dayanır. Şübhə etmirəm ki, Yeni Azərbaycan Partiyasını bələdiyyələrdə təmsil edən üzvləri öz məsuliyyətini lazımınca dərk edəcək, insanlara layiqincə xidmət göstərəcək, xalqın onlara göstərdiyi etimada layiq olmağa çalışacaqlar.

**Bələdiyyələrə üzv seçilənləri təbrik edir, seçki kampaniyasında yaxından iştirak edən və əsl fədakarlıq göstərən partiya təmsilçilərinə təşəkkürümü bildirirəm".**

*Xəbər xidməti*

# Üç dövlətin XİN-dən Azərbaycanın ərazi bütövlüyünə dəstək - status-kvo dəyişdirilməlidir...

**Azərbaycan, Gürcüstan və Türkiyə Xarici işlər nazirlərinin Tiflisdə görüşü keçirilib. Baki-xeber.com xəbər verir ki, XİN başçılarının səkkizinci üçtərəfli görüşündə bəyanat qəbul edilib. Sənədi Azərbaycan, Gürcüstan və Türkiyənin xarici işlər nazirləri - Elmar Məmmədyarov, David Zalkaliani və Mövlud Çavuşoğlu imzalayıb.**

Bəyanatda deyilir:

"23 dekabr 2019-cu il tarixində Gürcüstanın Tbilisi şəhərində Xarici işlər naziri David Zalkalianinin dəvəti əsasında Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov və Türkiyə Respublikasının Xarici işlər naziri Mövlut Çavuşoğlunun iştirakı ilə hər üç ölkənin Xarici işlər nazirlərinin Səkkizinci Görüşü keçirildi.

Nazirlər həm siyasi dialoq, həm də spesifik üçtərəfli layihələrin icrası üçün vacib bir platforma kimi xarici işlər nazirlərinin əvvəlki üçtərəfli görüşlərində qəbul olunmuş Trabzon Bəyannaməsi, Batumi Birgə Kommünikesi, Gəncə, Qars, Tbilisi, Bakı və İstanbul Bəyannamələrindəki öhdəliklərini vurğuladılar;

Ölkələri arasında artan ikitərəfli və üçtərəfli əməkdaşlıqdan məmnunluq ifadə etdilər və strateji tərəfdaşlıq, mehriban qonşuluq, qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlığın daha da genişləndirilməsinə sadiq olduqlarını bir daha təsdiq etdilər;

Hər üç ölkənin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət və qəti dəstəklərini bir daha təsdiq etdilər;

Bu xüsusda, regionda mövcud münaqişələrin sülh, təhlükəsizlik, sabitlik və iqtisadi inkişafa zərbə vurduğunu, beləliklə status-kvonun qəbuledilməz olduğunu və davamlı olmadığını və münaqişələrin gecikmədən sülh yolu ilə həll edilməsini tələb etdiyini vurğuladılar;

Gürcüstanın Abxaziya və Tsixinvali/Cənubi Osetiya və Azərbaycan Respublikasının Dağlıq-Qarabağ bölgəsi və ətraf rayonlarında münaqişənin dayanıqlı sülh yolu ilə beynəlxalq hüququn prinsipləri və normaları, xüsusilə də suverenlik, ərazi bütövlüyü və dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında, eləcə də BMT, ATƏT və Avropa Şurasının müvafiq qətnamələri və qərarlarına uyğun olaraq həllinin mühüm əhəmiyyətini bir daha vurğuladılar; qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarına təhlükəsiz və ləyaqətli qayıdışının zəruriliyini qeyd etdilər;




Müdafiə sahəsində əməkdaşlıqla bağlı 2018-ci il Anlaşma Memorandumu ilə vurğulandığı kimi, müdafiə sahəsində üçtərəfli əməkdaşlığın əhəmiyyətini bir daha təsdiq etdilər, müdafiə sənayesində növbəti əməkdaşlıq, üçtərəfli təlim və məşğələrdə əməkdaşlığın, eləcə də yüksək səviyyəli görüşlərin zəruriliyini vurğuladılar. Bununla bağlı 12 iyun 2019-cu il tarixində Qəbələ şəhərində baş tutmuş Müdafiə nazirlərinin Üçtərəfli Görüşünü alqışladılar.

Enerji, nəqliyyat, telekommunikasiya, innovasiya, texnologiya, sənaye, kənd təsərrüfatı, turizm, və ətraf mühit sahələrində birgə layihə və proqramların icrası vasitəsilə iqtisadi-ticarət əməkdaşlığını daha da gücləndirmək, investisiya və ticarətin təşviqi üçün mövcud potensialdan istifadə etmək, həmçinin əməkdaşlığın təşviq edilməsinə dəstək göstərməyə razılaşdılar;

Beynəlxalq səviyyəli layihələrin birgə təşviqi daxil olmaqla, Cənub Dəhlizinin enerji layihələrinin həyata keçirilməsi üçün qarşılıqlı əlaqələrin davam etdirilməsi və daha da dərinləşdirilməsi üzrə qətiyyətlikilərini bir daha təsdiq etdilər;

Enerji sahəsində əməkdaşlığın gücləndirilməsinə hazır olduqlarını ifadə etdilər və enerji sektorundan məsul nazirlərin iştirakı ilə üçtərəfli görüşlərin keçirilməsini təşviq etməyi qərara aldılar;

Üç ölkənin müvafiq şirkətləri arasında elektrik enerjisi sahəsində birgə layihələrin inkişaf etdirilməsi və qarşılıqlı təcrübə mübadiləsi sahəsində əməkdaşlığın möhkəmlənidirlməsinin əhəmiyyətini qeyd etdilər və elektrik enerjisi sahəsində əməkdaşlığın yaxşılaşdırılması məqsədilə üçtərəfli elektrik enerjisi bazarının yaradılmasının əhəmiyyətini vurğuladılar;

Enerji sahəsində strateji tərəfdaşlığı qeyd etdilər, Trans Anadolu Qaz Boru Xətti (TANAP), Cənub Qaz Dəhlizinin (CQD) digər əhəmiyyətli komponentlərinə, eləcə də Xəzər regionundan Avropaya təbii qaz nəqlinin həcminin artırılması məqsədini daşıyan enerji layihələrinə tam dəstək verdiklərini təsdiq edərək, bu layihələrin uğurla tamamlanması və fəaliyyətinin təmin olunmasında Azərbaycan, Gürcüstan və Türkiyənin rolunu vurğuladılar. Bu xüsusda, 2019-cu ilin 30 Noyabr tarixində İpsala, Ədirnədə TANAP-ın Avropa Əlaqələndirilməsi üzrə İnoqurasiyasını alqışladılar;

Trans Xəzər Şərq-Qərb Orta Dəhliz də daxil olmaqla əsas beynəlxalq tranzit dəhlizləri üzərində yerləşən üç ölkənin tranzit potensialının, Azərbaycan, Gürcüstan və Türkiyə ərazisindən keçən dəmir yolu əsaslı multimodal nəqliyyat dəhlizinin, eləcə də beynəlxalq tranzit sisteminə inteqrasiya səylərinin gücləndirilməsi üçün atılmış əhəmiyyətli addımları vurğuladılar, nəqliyyat və rəqəmsal infrastrukturun inkişafı, Ağır və yumşaq infrastrukturun inkişafı, xüsusilə də tranzit potensialının artırılması üzrə nəqliyyat dəhlizlərinin rəqəmsallaşdırılması üçün yeni layihələrin həyata keçirilməsi məqsədilə əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini qeyd etdilər;

Asiya və Avropa arasında rəqabətyönümlü nəqliyyatın asanlaşdırılmasında Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttinin və Dəmir İpək Yolunun bir hissəsi kimi Marmaray layihəsinin əhəmiyyətli rolunu vurğuladılar. Bu xüsusda, BTQ-nin tam fəaliyyəti üçün onun tamamlanmasının sürətləndirilməsin, eləcə də qeyd olunan dəmir yolu vasitəsilə yük daşımalarının həcminin artırılması və sərnişin daşınmasına başlanılması, həmçinin BTQ dəmir yolunun və Dəmir İpək Yolunun gücləndirilməsi məqsədilə xəttin tutumunun artırılması və infrastruktur çatışmazlığının aradan qaldırılması üçün işlərin yekunlaşdırılması üzrə razılığa gəldilər;

*(Ardı 5-ci səh.)*

(Əvvəli 4-cü səh.)

Multimodal nəqliyyat əməkdaşlığı üzrə Türkiyə-Gürcüstan-Azərbaycan komitəsinin yaradılmasının əhəmiyyətini vurğuladılar;

İnformasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlığın vacibliyini qeyd edərək, Trans-Avrasiya Super İnformasiya Magistralı layihəsinin plaşdırılması və həyata keçirilməsi də daxil olmaqla, Asiya və Avropa arasında beynəlxalq rəqəmsal əlaqənin inkişaf etdirilməsi istiqamətində səylərin gücləndiriləcəyinə razılaşdılar;

Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) çərçivəsində əməkdaşlığın əhəmiyyətini vurğulayaraq, QDİƏT-i layihə yönümlü təşkilat etmək öhdəliklərini bir daha qeyd etdilər və QDİƏT-i canlandırmaq üçün birgə işləmək qərarına gəldilər;

Müvafiq ölkələrin gömrük qurumları arasında mövcud yaxşı əməkdaşlığın əhəmiyyətini bildirdilər, Türkiyə Ticarət Nazirliyi, Gürcüstanın Vergi Xidməti və Azərbaycanın Dövlət Gömrük Komitəsi arasında Gömrük Məsələləri üzrə Üçtərəfli Komitənin təsis edilməsi üçün işin aparılmasına razılaşdılar;

Bölgənin nəqliyyat iqtisadi dəhlizinin cəlbediciliyinin möhkəmləndirilməsi və genişləndirilməsinin və gömrük sənədlərinin rəqəmsallaşdırılması, məlumatın elektron mübadiləsi vasitəsilə malların hərəkətinin asanlaşdırılması üçün çərçivənin formalaşdırılmasının əhəmiyyətini vurğuladılar;

Dövlətlər arasında əməkdaşlığın möhkəmləndirilməsi kimi nəzərdə tutulan layihə və proqramların həyata keçirilərək ekspertiza, bilik, texnologiya və ən yaxşı təcrübənin mübadiləsi vasitəsilə sənaye sahəsində əməkdaşlığın əhəmiyyətini ifadə etdilər;

Kiçik və Orta Müəssisə (KOM) sahəsində biliyin və təcrübənin bölüşməsi və KOM-lar arasında əməkdaşlığın genişləndirilməsi məqsədilə KOM-a yardımcı təşkilatlar arasında birgə əməkdaşlığın əhəmiyyətini vurğuladılar;

Regionda ekoloji tarazlığın saxlanılması məqsədilə ətraf mühitin mühafizəsi, meşəçilik, torpaqdan istifadə və su resurslarının idarə edilməsi sahələrində əlaqələrin, məlumat və təcrübə mübadiləsinin gücləndirilməsinin vacibliyini vurğuladılar;

İş adamları üçün yeni imkanların yaradılması məqsədi daşıyan bir platforma kimi növbəti Türkiyə-Azərbaycan-Gürcüstan Biznes Forumunun ən qısa zamanda keçirilməsinin əhəmiyyətini ifadə etdilər;

Gürcüstanın innovasiya və texnologiya, o cümlədən biliklərə və innovasiyaya əsaslanan iqtisadiyyatın inkişafı üçün əlverişli ekosistemin yaradılması istiqamətində uğurlu islahatların aparıldığını vurğuladılar və üç ölkə arasında əməkdaşlığı artırmağa hazır olduqlarını bildirdilər;

Yüksək səviyyəli siyasətçilər, biznes və ictimai liderlər arasında əhəmiyyətli ticarət və əlaqə ilə bağlı məsələlərin müzakirəsi, İpək Yolu üzərində Şərq və Qərbi birləşdirən ölkələrin üzləşdiyi çağırışların tədqiqi, habelə region və qlobal iqtisadiyyat üzərində güclü təsiri olan müştərək həll variantlarının tapılması məqsədilə çoxtərəfli yüksək səviyyəli dialoq üçün beynəlxalq platforma kimi xidmət edən, 22-23 oktyabr 2019-cu il tarixlərində keçirilmiş 3-cü Beynəlxalq Tbilisi İpək Yolu Forumunun əhəmiyyətini vurğuladılar. Forum ayrıca panel müzakirələrində süni intellekt, ticarət, nəqliyyat və enerji ilə bağlı tam spektrli məsələlərin müzakirəsi üçün imkanlar yaradır, həmçinin Gürcüstanda özəl sektor və investisiya imkanlarına diqqəti cəmləşdirir;

Sağlamlıq turizmi sahəsində əməkdaşlıq imkanlarını araşdırmağa və genişləndirməyə dair razılıqlarını verdilər;

Terrorizmin, zorakı ekstremizmin və separatizmin bütün növlərinə və təzahürlərinə, transmilli mütəşəkkil cinayətkarlığa, narkotiklərin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsinə, silahlara, insan alverinə, mədəni və tarixi irsə qarşı cinayətlərə, çirkli pulların yuyulmasına, kibercinayətkarlığa, dezinformasiya kampaniyalara, miqrant qaçaqmalçılığına və digər transmilli təhdidlərə qarşı mübarizədə əməkdaşlığın gücləndirilməsinə qəti sadiq olduqlarını bir daha ifadə etdilər;

Hər üç ölkənin təhlükəsizliyinə hədə təşkil edən terrorçu qruplarına qarşı mübarizədə bir-birlərinə dəstəyi və səylərini davam etdirməkdə qətiyyətlərini vurğuladılar;

Hər üç ölkənin xalqları arasında əlaqələrə töhfə verəcək humanitar sahədə əməkdaşlığın, o cümlədən mədəniyyət, təhsil, səhiyyə, gənclərin mübadiləsi, turizm və idman sahələrində əməkdaşlığın əhəmiyyətini qeyd etdilər və bu sahələr üzrə birgə layihələrin və tədbirlərin irəli sürülməsinə və təşviq olunmasına hazır olduqlarını ifadə etdilər;

Bölgədə etnik və dini tolerantlıq irsini əks etdirən mədəni irsin qorunması üçün aidiyyəti qurumların səylərini artırmaq üçün üç ölkə arasında genişləndirilmiş əməkdaşlığa ehtiyac duyulduğunu vurğuladılar;

Keçmiş SSRİ Hökuməti tərəfindən keçmiş Gürcüstan SSR-dən sürgün edilmiş məcburi köçkünlərin deportasiyasının 75-ci ildönümünün anımı münasibətilə dərin hüzn ifadə etdilər və Gürcüstan hakimiyyətinin məcburi köçkünlərin geri qayıtması ilə əlaqədar atdığı addımları müsbət qiymətləndirdilər;

Mədəniyyətlərarası dialoq, tolerantlıq və müxtəlifliyə hörmətin təşviq edilməsi üçün əsas qlobal platforma kimi "Bakı Prosesi"nin önəmli rolunu vurğuladılar;

2017-2019-cu illər üzrə Üçtərəfli Sahəvi Əməkdaşlığa dair Fəaliyyət Planının uğurla həyata keçirilməsindən məmnunluq ifadə etdilər və 2020-2022-ci illər üzrə Üçtərəfli Sahəvi Əməkdaşlığa dair Fəaliyyət Planının qəbul olunmasının əhəmiyyətini vurğuladılar;

Növbəti görüşün Azərbaycan Respublikasında keçirilməsi ilə bağlı razılığa gəldilər".

Tiflisdə Azərbaycan, Gürcüstan və Türkiyə Xarici işlər nazirlərinin səkkizinci üçtərəfli görüşü çərçivəsində nazir Elmar Məmmədyarovla Gürcüstanın Xarici işlər naziri David Zalkaliani arasında ikitərəfli görüş keçirilib. Görüş əsnasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinə aid məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Görüşdə Xarici işlər nazirləri, eyni zamanda, regionda baş verən mühüm məsələləri müzakirə edib, iki ölkə arasında Hökumətlərarası İqtisadi Komissiyanın növbəti iclasının keçirilməsinin əhəmiyyəti vurğlanıb.

Görüşdə, eləcə də üçtərəfli əməkdaşlıq məsələləri, hər üç ölkənin iştirakı ilə ticarət, iqtisadiyyat, nəqliyyat və enerji sahələrində əməkdaşlıq məsələləri müzakirə movzusu olub, enerji sahəsində əməkdaşlıq məsələlərindən bəhs edilərək, Cənub Qaz Dəhlizinin tikintisinin başa çatması və genişləndirilməsinin perspektivləri ətrafında müzakirələr aparılıb, o cümlədən TANAP layihəsinin başa çatmasının əhəmiyyəti qeyd edilib, üçtərəfli formatda Azərbaycan, Gürcüstan və Türkiyə arasında keçirilən görüşün regional əməkdaşlığa, sabitliyə və tərəqqiyə töhfə verdiyi xüsusilə vurğulanıb.

Görüşdə nazirlər, həmçinin, son regional və qlobal hadisələr üzrə fikir mübadiləsi aparıblar.

# Böhran Qrupundan Qarabağətrafı rayonlarımızın qanunsuz məskunlaşdırılması barədə şok xəbər - Qubadlıda bir qarış da yer qalmayıb...

**Brüsseldə mənzillənən Beynəlxalq Böhran Qrupu (İnternational Crisis Group) Dağlıq Qarabağ münaqişəsinə dair sensasion faktlarla dolu hesabat yayıb. Hesabatda bir sıra narahatedici məqamlar yer alıb.**



Hesabata əsasən, erməni işğalçıları nəinki Dağlıq Qarabağın inzibati ərazisində, eləcə də ətraf rayonlarda məskunlaşmanı sürətlə davam etdirirlər. Hətta elə vəziyyət yaranıb ki, işğal altındakı Qubadlı rayonunda əkinə yararlı bütün torpaq sahələri zəbt olunub. İşğal altında qalan ərazilərə daraşan ermənilər Füzuli və Cəbrayıl rayonlarının Araz çayı boyu münbit torpaqlarını əkib-becərməyə başlayıblar. Hesabatda deyilir ki, işğal altındakı ətraf rayonlarda məskunlaşma və ərazilərin əkib-becərilməsi davamlı olaraq artmaqdadır. Baxmayaraq ki, bu ərazilərdə infrastruktur yoxdur.

"9 il qabaq biz bura ilk dəfə gələndə cəmi 150 hektar torpaq əkilmişdi. İndi isə bir hektar da boş torpaq qalmayıb", - Qubadlı rayonunda qanunsuz məskunlaşmış bir erməni təşkilatın ekspertləri ilə söhbətində deyib. Hesabata əsasən, kənd təsərrüfatı məqsədilə torpaqlara tələbatın artması nəticəsində Dağlıq Qarabağın qondarma "hökumətinin" məmurları məskunlaşmanın hüdudlarını genişləndiriblər.

Burada diqqətçəkən bir məqam da ondan ibarətdir ki, işğal olunmuş ərazilərdə məskunlaşma 2006-cı ildən bir qədər də güclənib. Bu onunla əlaqələndirilir ki, 2006-cı ildə məskunlaşma məsələsində səlahiyyət Dağlıq Qarabağın qondarma "hakimiyyətinə" keçib. Onlar sürətlə digər ətraf rayonlara, o cümlədən, Kəlbəcərə, Ağdama, Zəngilan və Qubadlıya erməniləri köçürməyə, bu rayonlarda kənd təsərrüfatı təyinatlı torpaqları əkib-becərməyə başlayıblar.

Hesabatda sözügedən məqamların yer alması bir sıra narahatedici nəticələr çıxarmağa əsas verir. Belə məlum olur ki, ermənilər hər vasitə ilə işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşma siyasətinin miqyasını genişləndirməkdə qərarlıdırlar. Baxmayaraq ki, Ermənistanın özündə demoqrafik vəziyyət pisdir, ölkədə doğumun səviyyəsi aşağıdır, əmək qabiliyyətli vətəndaşlar imkan düşən kimi ölkəni tərk edirlər. Ancaq buna rəğmən, hər vasitə ilə xüsusən də Dağlıq Qarabağın ətrafında yerləşən rayonlarda məskunlaşma siyasəti aparırlar. Sanki buna strateji bir məsələ kimi yanaşırlar. Ermənilərin keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ətrafında rayonlarda bu cür qanunsuz məskunlaşması bir sıra narahatedici məqamlardan xəbər verir. Belə görünür ki, ermənilər nəinki Dağlıq Qarabağı, heç ətraf rayonları da danışıqlar yolu ilə qaytarmaq istəmirlər. Yoxsa, bu dərəcədə ətraf rayonlarda kütləvi məskunlaşma siyasəti aparılmazdı. Digər tərəfdən, bu onu göstərir ki, sözügedən rayonların zəngin kənd təsərrüfatı potensialı, münbit torpaqlar işğalçı tərəfi daha da şirnikləndirir. Separatçı qurum, o cümlədən, işğalçı Ermənistan kənd təsərrüfatı məhsullarına olan tələbatın bir hissəsini həmin rayonlar hesabına təmin etmək istəyir. Zatən, son illər işğal altındakı Arazboyu rayonlardan kənd təsərrüfatı məqsədilə istifadə olunması halları çoxalıb. Nəzərə almaq lazımdır ki, Ermənistan dağlıq ərazidən ibarət olduğu üçün orada əkinə yararlı torpaqlar çox azdır.

Görünən odur ki, atəşkəsin bu qədər uzanması, aparılan danışıqların nəticə verməməsi və ən başlıcası, beynəlxalq qurumların işğala görə Ermənistana təzyiq göstərməməsi qarşı tərəfi br qədər də ruhlandırır. Ermənilər hesab edirlər ki, zamanın uzanması onların xeyrinə işləyir.

Ona görə də hər vəchlə qanunsuz məskunlaşmanı genişləndirirlər. Gələcəkdə danışıqlarda bundan bir vasitə kimi istifadə etməyə ümid edirlər. Azərbaycan danışıqlar nəticə vermədiyi üçün, fürsət yaranan kimi, torpaqların azad olunması ilə bağlı digər vasitələrə əl atmalıdır. Yoxsa, işğalçı tərəf xoşluqla qanunsuz məskunlaşma siyasətindən əl çəkən deyil.

***Vidadi ORDAHALLI***

**Parlament seçkiləri günü yaxınlaşdıqca namizədlərin kimliyi bəlli olur. Maraqlıdır ki, onların arasında buraxılan parlamentdə təmsil olunmuş millət vəkilləri də az deyil. Ancaq parlamentin buraxılmasına səs verən deputatların yenidən mandat uğrunda mübarizəyə girişməsinə cəmiyyətdə birmənalı mövqe yoxdur.**

# Namizədliyini yenidən irəli sürən deputatların arqumentlərinə baxın...



*Aydın Quliyev:* *"Həmin deputatlardan bir çoxunun yenidən seçkiyə qatılmaq iddiası ilə ortada görünməsini məntiqli saya bilmirəm"*

*Fazil Mustafa:* *"Bu, bir hüquqdur və bundan kimisə imtina etməyə məcburiyyət ola bilməz"*

*Elman Nəsirov:* *"Seçilənlərin sırasında yeni şəxslərlə yanaşı, 5-ci çağırış parlamentdə təmsil olunan şəxslər də ola bilər"*

Çoxları hesab edir ki, həmin deputatlar, ən azından, budəfəki estafeti başqalarına ötürməklə bağlı qərar qəbul etməliydilər.

"Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev öz "Facebook" səhifəsində bunları yazıb: "Qəbul edirik ki, seçkilərdə iştirak hər kəsin fundamental haqqıdır və bu iddiasını ortaya qoyanlara heç kim mane ola bilməz. Ancaq az əvvəl MM-in buraxılmasına tək bircə nəfərdən başqa bütün deputatlar səs verdilərsə, bu gün həmin deputatlardan bir çoxunun yenidən seçkiyə qatılmaq iddiası ilə ortada görünməsini məntiqli saya bilmirəm. Məntiq o zaman olardı ki, təkcə həmin o deputatdan başqa (kimliyini bilirik) bütün digər deputatlar yenidən seçkiyə getməyin özləri üçün məntiqli olmadığı barədə birmənalı bəyanat verəydilər...

Hələ onu demirəm ki, xüsusilə də müstəqillər onlara mandat vermiş seçiciləri ilə heç bir məsləhətləşmə aparmadan MM-in buraxılması təşəbbüsünə qoşuldular və seçicilərin bir çox iddiaçı arasında məhz onlara verdikləri mandatı yerə qoydular… Seçicilər deməzmi ki, mənim verdiyim mandatı mənimlə məsləhətləşmədən nə haqla yerə qoyursan?

Bu mənim fikirlərimdir və istənilən polemikaya hazıram...".

Seçkilərdə yenidən iştirak edəcəyini "Bakı-Xəbər"ə təsdiqləyən millət vəkili Fazil Mustafanın sözlərinə görə, artıq imza vərəqlərini Dairə Seçki Komissiyasına təqdim edib: "Elə əvvəlki dairədən namizədliyimi irəli sürdüm. Hesab edirəm ki, seçildiyim dairədən tərəfdarlarımızın sayı çoxdur. Biz, eyni zamanda, parlament partiyası olmuşuq. Seçkilərə qatılmaqla həm də yenidən parlamentdə partiya kimi iştirakımızı qarşımıza məqsəd qoymuşuq. 65 namizəd irəli sürmüşük. Onlardan nə qədərinin qeydiyyata alınacağını dəqiq bilmirik. Köhnə deputatların yeni seçkilərdə iştirak etmək haqqının olmadığı fikrilə qəti razı deyiləm. Bu bir hüquqdur və bundan kimisə imtina etməyə məcburiyyət ola bilməz. Parlamentin buraxılması təşəbbüsü ilə qanunvericilik qurumunda mütləq çoxluğa malik olan YAP çıxış edib. Bunun da nəticəsində parlament fəaliyyət göstərmə imkanını itirirdi. Yeganə çıxış yolu parlamentin buraxılması qalırdı. Buna görə də bitərəf və digər partiyaların təmsilçisi olan deputatlar da yeni seçkilərin keçirilməsini məqbul saydı. Bu, kiminsə seçkilərdə iştirak hüququnu məhdudlaşdırmır. Bu baxımdan da keçmiş deputatların seçkiyə qatılması tam qanunidir. Biz xarici təcrübədə də belə halları çox görmüşük ki, parlamentin buraxılmasına səs verənlər yenidən seçkilərdə iştirakla bağlı qərar qəbul edirlər. Burada hər hansı qəbahət də görmürəm".

Seçkilərdə yenidən iştirakı gözlənilən millət vəkili Elman Nəsirov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu qərar onun təmsil olunduğu partiyadan irəli gəlib: "Biz YAP fraksiyasını təmsil edən deputatlar olaraq partiyanın qərarına hörmətlə yanaşmalıydıq. Hesab edirəm ki, bu doğru addım ölkədə gedən dərin islahatlar zərurətindən irəli gəldi. Bizim istəyimiz budur ki, müasirləşən Azərbaycanın daha müasir parlamenti formalaşsın. Bu baxımdan da köhnə deputatların da yenidən deputat olmaq istəyinə normal yanaşıram. Bizim istəyimiz budur ki, yeni parlamentdə savadlı, bilikli, bacarıqlı millət vəkilləri daha çox olsun. Hesab edirəm ki, köhnə deputat korpusunda təmsil olunan deputatların sırasında bu göstəricilərə cavab verən çoxlu sayda şəxs var. Dövlət başçısı da qeyd edib ki, yeni kadrların seçimində müasirliklə təcrübənin vəhdədi tapılmalıdır. Bizim də gözləntimiz budur ki, yeni parlamentin formalaşmasında bu kateqoriyalı şəxslərin çoxluq təşkil edəcəyini gözləməyə dəyər.

**Təbii ki, burada önəmli rolu xalqın seçimi oynayacaq. İrəli sürülən namizədlərin sırasında deyilən parametrlərə uyğun gələnlər çoxluq təşkil edəcəksə, xalq da seçimində onlara üstünlük verəcək. Onların sırasında yeni şəxslərlə yanaşı, 5-ci çağırış parlamentdə təmsil olunan şəxslər də ola bilər. Buna da normal yanaşmaq lazımdır".**

*Məhəmmədəli QƏRİBLİ*

**Qarşıdan gələn parlament seçkilərində iştirakla bağlı namizədlərin çoxluğu müşahidə edilir. Onların sırasında təkrar namizədliyini verən millət vəkilləri də az deyil. Maraqlıdır ki, məhz yenidən iddialarını ortaya qoyan köhnə millət vəkilləri ilə bağlı sosial şəbəkələrdə maraqlı məlumatlar paylaşılır.**

# Təkrar namizədlik verən deputatların əmlaklarının "alabəzək" siyahıları - seçicilər hansı reaksiyanı verəcəklər...




*Samir Adıgözəlli:* *"Onların bu dəfə seçiciləri aldatmaq taktikası baş tutan deyil"*

Əsasən də konkret sənədlərə istinadən hazırda millət vəkili statusunu daşıyan şəxslərin əmlakları ilə bağlı sosial şəbəkələrdə və bəzi elektron KİV-də paylaşımlar olur. Həmin məlumatlara baxanda təkrar namizədliyini irəli sürən deputatların varidatı, sözün həqiqi mənasında, göz qamaşdırır. Söhbət dəyəri milyonlarla ölçülən mənzillərdən, şadlıq evlərindən və başqa "obyektlərdən" gedir. Adam bir anlıq təsəvvür edir ki, görəsən bu qədər var-dövləti sadə millət vəkili maaşı ilə toplamaq olarmı? Maraqlıdır, ortaya çıxan bu faktlara seçicilər hansı reaksiyanı verəcəklər?

İctimai-Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin (İSBAM) sədri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, budəfəki seçkilərdə dediyiniz detala ciddi önəm veriləcək: "Artıq ölkədə yeni bir dönəm başlayıb. Rüşvət və korrupsiya ilə amansız mübarizə aparılır. Bu günlərdə bəzi rayonların fəaliyyətdə olan və sabiq icra hakimiyyəti başçıları ilə bağlı aparılan əməliyyatlar və onların həbsə atılması bir daha sübut etdi ki, xalqın malını talayanlara güzəşt olmayacaq. İslahatların fonunda, parlamentin də şəffaflaşması istənilir. Yəqin ki, budəfəki seçkilərdə biz oliqarx deputatların parlamentdə çox da təmsil olunduğunu görməyəcəyik. Maraqlıdır ki, sizin dediyiniz siyahılar iş adamı olan deputatlarla bağlı deyil, özlərini sadə siyasətçi kimi təqdim edənlərlə bağlı yayılır. Bu qənaətə gəlirsən ki, belə adamlar mandatdan yalnız öz mənfəətləri üçün istifadə ediblər. Bunun da nəticəsində elan olunan əmlaklara, var-dövlətə sahibləniblər. Təbii ki, seçkiqabağı təbliğatda rəqiblər bu faktları seçicilərin diqqətinə çatdıracaqlar. Əminəm ki, seçicilərin buna reaksiyası mənfi olacaq və kimsə həmin adamları deputat kimi görmək istəməyəcək.

Çünki seçicilərin verdiyi mandatla gedib özünə mal-mülk toplayan millət vəkili onların nəyinə lazımdır? Onlara səslərini, problemlərini yuxarılara çatdıran, onların həllinə nail olan şəxslər gərəkdir. Düşünürəm ki, deyilən kateqoriya adamların dönəmi bitib. Onların bu dəfə seçiciləri aldatmaq taktikası baş tutan deyil".

*Məhəmmədəli QƏRİBLİ*

# İqbal Ağazadə ilə Rauf Arifoğlu eyni dairədən üz-üzə gəldilər, Araz Əlizadə aradan çıxarıldı...

**Parlament seçkilərinin gərgin keçəcəyi dairələrdən biri artıq müəyyənləşib. Söhbət 35 saylı Xətai 3-cü seçki dairəsindən gedir. Qeyd edək ki, ötən seçkidə həmin dairədən ASDP sədri Araz Əlizadə mandat qazanıb. Onun həmin dairədən əsas rəqibi Ümid Partiyasının sədri İqbal Ağazadə olmuşdu. Həmin seçkidən sonra İ.Ağazadə seçkilərin nəticələrini tanımadığını, Araz Əlizadəyə qalib gəldiyini bildirmişdi.**

Növbədənkənar seçkilərlə bağlı qərar verilən kimi İqbal Ağazadə yenidən həmin dairədən millət vəkili olmaq istədiyini bəyan etdi və namizədliyini sürmək üçün imzatoplama kampaniyasına başladı. Araz Əlizadənin ağır xəstə olması ilə bağlı yayılan xəbərlər Ağazadənin şansını bir qədər də artırırdı. Çünki güman edilirdi ki, ASDP sədri budəfəki seçkilərə qatılmayacaq. Ancaq gözlənilmədən "Yeni Müsavat" qezetinin baş reaktoru Rauf Arifoğlu da həmin dairədən deputat olmaq niyyətini açıqladı. O, öz "Facebook" səhifəsində "Əlizadəçilik bitdi" başlıqlı bir yazı paylaşdı: "Dəyərli dostlar. Bu gün seçki hüququmdan istifadə edərək, 35 saylı Xətai 3-cü seçki dairəsindən deputatlığa namizədliyimi irəli sürdüm. Bunun üçün lazım olan sənədləri səlahiyyətli nümayəndəm DSK-ya təqdim etdi.

- Niyə Xətai, niyə 35?
- Bu dairə kimindir? Passiv seçki hüququ olan hər bir Azərbaycan vətəndaşının, indiki deputat Araz Əlizadənin, dostum İqbal Ağazadənin, yoxsa mənim?
- Kimin şansı nə qədərdir?
- Arifoğlu gəldi, Əlizadə gedəcəkmi, parlament əlizadəçilik utancından qurtulacaqmı?
- Seçkilərin gedişində kiminsə xeyrinə namizədliyimdən imtina edə bilərəmmi?

Bu və başqa suallara növbəti statusumda cavab yazacam. Detallı və səmimi!

İndi isə bu bəyanımı edərək, bütün dostları, media ictimaiyyətini, Xətai 35 saylı 3-cü seçki dairəsində yaşayan "Facebook" istifadəçilərini dəstəyə səsləyirəm.

Seçki təcrübəsi olan fəalları, siyasi texnoloqları, ziyalıları, gənc könüllüləri, tələbələri seçki qərargahıma dəvət edirəm. Gəlin Azərbaycan üçün, demokratiya və haqlar uğrunda birgə çalışaq! Birlikdə Azərbaycanda ən nümunəvi bir kampaniya keçirək! Yeni ilin ən gözəl hadisəsini bərabər hazırlayaq!"

R.Arifoğlunun bu qərarı çox böyük sensasiya kimi qarşılanıb. Çünki həmin dairənin əsas favoriti İ.Ağazadə hesab edilirdi. Bu iki şəxsin həm də yaxın dost olduqlarını nəzərə alsaq, vəziyyətin bir qədər gərginləşdiyi qənaəti hasil oldu. Çünki R.Arifoğlunun bu qərarını elan etməsindən sonra Ümid Partiyasının fəalları bu qərarların dəyərlərə zidd olduğunu bildirib, R.Arifoğluna qarşı geniş antitəbliğata başladılar. İ.Ağazadənin isə məsələyə münasibəti belə oldu: "Biz seçicidən səs almaq istəyirik. Və əminəm ki, alacağıq. Bunu hər kəs bilir, şübhə edənlər də həm təbliğat, həm də səsvermə günü bir daha şahid olacaqlar. Mən heç vaxt başqa dairədən namizədliyimi verməmişəm. Haqqım tanınanda da, tanınmayanda da bu dairənin seçicilərinə üz tutmuşam. Ənənəmə bu dəfə də sadiq qaldım.







Rauf bəylə şəxsi münasibətlərimizdən dolayı sizlər onun namizədliyini bu dairədən verməsinə aqressiv yanaşır, mənim heç zaman o namizəd olduğu dairədən iddia ortalığa qoymayacağımı bildiyiniz üçün emosional davranırsınız. Doğrudur, mən heç vaxt Rauf bəyin dairəsindən - həm də həmişə iddialı olduğu, onun daima oradan namizədliyini verdiyini bildiyim dairədən - namizədliyimi verməzdim. Bu mənim prinsiplərimdir. Ona görə yox ki, kiməsə uduza biləcəyimi güman edirəm, əsla. Sadəcə, dəyərlərə sayğımın ifadəsi belədir.

Lakin mən beləyəmsə, hamını mənim kimi olmağa da məcbur etməyə nə mənim, nə də sizin haqqınız yoxdur. Mən bütün iddialıları bu dairəyə dəvət edirəm, gəlsinlər, namizəd olsunlar, yarışsınlar. Seçici səsi almaq üçün mübarizə aparsınlar.

Lakin Araz Əlizadəyə oxşamasınlar. Uduzanda kişi kimi etiraf etsinlər, xalqın səsinə haram qatmasınlar, hətta uduzanda mandatı onlara verən tapılsa belə imtina etməyə vicdanları olsun.

Namizəd olan hər kəsə, o cümlədən, Rauf bəyə uğurlar arzulayıram. Həmişəki kimi dəstək ola bilməyəcəyəm, əziz Rauf bəy. Lakin seçki texnologiyalarını bilən adam kimi seçki qərargahınıza məsləhətlərimi əsirgəmərəm. Mən olduğum yerdə dəyərlər heç zaman pozulmayıb, bir ömür də belə olacaq - Mənə münasibətdən asılı olmayaraq.

"Yeni Müsavat"dakı dostlarımız isə tarixin müxtəlif dönəmlərində müsahibə, reportaj və s. məsələləri xüsusi qabartmasınlar, o da Rauf bəylə mənim aramda.

Rauf bəy, bir daha uğurlar arzu edirəm, sizinlə yanaşı gerçək mübarizə aparmaq istəyən hər kəsi bu dairəyə dəvət edirəm".

Baş redaktorun tərəfdarları bu ittihamları cavabsız qoymadılar və nəticədə sosial şəbəkələrdə açıq döyüşün getdiyinin şahidi olduq. R.Arifoğlunun tərəfdarları bildirirlər ki, hansısa dairə kiminsə adına yazılmayıb və iki dostun seçki marafonunda yarışması elə əsl demokratiya nümunəsidir.

Ən maraqlısı isə budur ki, vəziyyətin gərginləşdiyini görən A.Əlizadə yenidən həmin dairədən millət vəkili olmaq istəyini ortaya qoyub. V çağırış Milli Məclisin deputatı olan A.Əlizadə səhhəti barədə danışarkən deyib ki, yenidən məhz seçildiyi dairədən deputat olmaq fikri var: "Müalicəm davam edir. Həyat da mübarizədir. Hər şey qaydasındadır. Səhhətim növbədənkənar parlament seçkilərinə qatılmağa imkan verir. Mənə nə olub ki?!. Siz özünüz də jurnalistsiniz. Jurnalistlərin yazdıqlarına inanırsınız?! Seçkilərə qatılacam".

Hələ hakim YAP sözügedən dairədən öz namizədinin adını açıqlamayıb. Bu da baş verəndən sonra biz sözügedən dairədə olduqca gərgin seçki mübarizəsi getdiyinin şahidi olacağıq.

*Məhəmmədəli* **QƏRİBLİ**




# Almaniyada siyasi mühacirət üçün müraciət edənlərin əksəriyyəti Müsavat sənədləri təqdim edir - Müsavatın mühacir biznesi ilə bağlı daha bir fakt...

**Almaniyada siyasi mühacirət üçün müraciət edənlərin əksəriyyəti Müsavat sənədləri təqdim edir.**

"Trend"in məlumatına görə, bu barədə Almaniyanın "globalvoices.org" saytı yazır. Sayt Almaniya Miqrasiya İdarəsinin (BAMF) məlumatına istinadən qeyd edir ki, 2019-cu ilin ilk beş ayında idarəyə 630 nəfər azərbaycanlı müraciət edib. Bunların isə cəmi 6 nəfərinə müsbət cavab verilib.

Yazıda BAMF-ın Azərbaycandan olan mühacir müraciətlərinin dəyərləndirməsi üzrə köməkçisi İlqar İsayevin də fikirlərinə yer verilib. O bildirib ki, sığınacaq üçün müraciət edənlərin böyük əksəriyy?ti inandırıcı olmayan siyasi səbəblər göstərir. Bunların da əksəriyyəti Müsavat sənədləri təqdim edənlərdir.

Xatırladaq ki, ötən ay Almaniyanın hüquq-mühafizə orqanları Azərbaycanın müxalifət partiyasının keçmiş üzvlərini saxlayıb. Cinayətkar şəbəkəyə daxil olan 7 nəfər həbs edilib. Cinayətkar dəstənin saxlanılan üzvləri barəsində yerli federal məhkəmələr tərəfindən 6 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Onlar Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 9 və 14 saylı məntəqə tipli cəzaçəkmə müəssisələrinin sabiq rəisi Elçin Əkbərov, Müsavat Partiyası Avropa Koordinasiya Mərkəzinin (Müsavat AKM) sədri, Kəlbəcər rayonunun sabiq icra başçısı İlham Həsən, Müsavat partiyasının üzvü, Müsavat AKM sədrinin müavini Mehdi Xəlilbəyli, Müsavat AKM-in üzvü Abdin Cavadov, sabiq deputat Sabir Rüstəmxanlının qardaşı, "Leqat" inteqrasiya mərkəzinin rəhbəri, sabiq polis rəisi Ələvsət Əliyev, Mehdi Xəlilbəylinin sürücüsü Rəşad Məmmədov, Müsavat Partiyasının üzvü Elşən Abdullayevdir.

Məlum olub ki, həbs edilənlər Almaniyada "miqrant alveri" ilə məşğul olmaqda, o cümlədən 3-10 min avro arası ödəmə qarşılığında insanları qaçaq yollarla Almaniyaya aparmaqda şübhəli bilinir.

# ABŞ Rusiyanın "Şimal qaz axını"nı dayandırdı, Avropanın Azərbaycan qazına ehtiyacı artdı...

**Rusiya qazını Avropaya çatdıracaq "Şimal axını-2" layihəsi ətrafında qalmaqal böyüyür. Belə ki, ABŞ-ın bu layihəyə qarşı daha sərt addımları "Şimal axını-2"nin dayanmasına səbəb olub. Artıq İsveçrənin "Allseas" şirkəti ABŞ sanksiyalarının təhdidinə görə "Şimal axını-2" qaz kəmərinin tikintisini dayandırıb.**

Bu xüsusda şirkətin yaydığı məlumatda bildirilir: "ABŞ-ın hərbi büdcəsinin təsdiqlənməsi ilə bağlı "Allseas" "Şimal axını- 2"də fəaliyyətini dayandırır".

Qeyd edək ki, dekabrın 19-u amerikalı senatorlar Ted Kruz və Ron Conson şirkətin rəhbəri Edvard Xirema təhdidlə dolu mesaj göndərib. Siyasətçilər "Allseas"ın rəhbərinə xəbərdarlıq ediblər ki, şirkət layihədə iştirakını dayandırmasa, onu ağır sanksiyalar gözləyir. Belə ki, siyasətçilər bu baş verməyəcəyi təqdirdə şirkətin bütün aktivlərinin dondurulacağını, onunla işbirliyinə qadağa qoyulacağını və şirkətin təmsilçilərinin ABŞ-a girişinə icazə verilməyəcəyini bildirib. Digər tərəfdən xatırladaq ki, ABŞ prezidenti Donald Tramp 2020-ci maliyyə ili üçün 738 milyard dollar həcmində müdafiə büdcəsini imzalayıb. Müdafiə büdcəsinə Rusiyanın "Şimal axını-2" və "Türk axını" qaz kəmərlərinə sanksiyaların tətbiq edilməsi də daxil edilib. Sanksiyalar "Avropanın enerji təhlükəsizliyinin təmin olunması" tədbirləri kimi nəzərdən keçirilir. Həmçinin sənəddə Rusiya ilə hərbi sahədə əməkdaşlıq da qadağan olunur. Məhz bu vəziyyət "Şimal axını-2" ətrafında qamaqallı bir durum yaradıb. Xatırladaq ki, 1220 kilometr uzunluğundakı "Şimal axını-2" qaz boru kəməri Baltik dənizindən keçməklə Rusiyadan Almaniyaya ildə 55 milyard kubmetr qaz nəql etmək gücünə malik olacaq. Rusiyanın enerji nəhəngi "Qazprom" bəyan edib ki, "Şimal axını-2" layihəsi 2019-cu ilin sonunadək başa çatdırılacaq. Amma il başa çatsa da, "Şimal axını-2"nin hələ nə vaxt tamamlanacağı bilinmir. Rusiya artıq ABŞ-ın bu addımına etiraz edir. Elə Almaniya İqtisadiyyat Nazirliyi də ABŞ-ın "Şimal axını-2" qaz kəmərinə qarşı tətbiq etdiyi sanksiyalara qarşı çıxıb. Bu fonda ABŞ-la Almaniya arasında "Şimal axını-2" kəməri ilə bağlı qalmaqal böyüyür. Almaniya hökuməti ABŞ-ın "Şimal axını-2" layihəsi ilə bağlı sanksiyasını "Avropanın daxili işlərinə qarışmaq" kimi dəyərləndirib. Məsələ ilə bağlı danışan ABŞ-ın Berlindəki səfiri Riçard Qrenell sanksiya qərarının Avropanın lehinə olduğunu, bir çox avropalı diplomatın Vaşinqtona təşəkkür etdiyini vurğulayıb: "Məqsəd həmişə Avropanın enerji qaynaqlarının müxtəlifliyini və bir ölkənin və ya bir mənbənin enerji ilə Avropaya çox güclü təsir yaratmamasını təmin etməkdir".

Almanya ilə yanaşı, Fransa da ABŞ-ın "Şimal axını2" layihəsinə qarşı tədbirinin əleyhinə çıxır. Fransanın maliyyə və iqtisadiyyat naziri Bruno Lö Mer Fransanın Avropa Birliyinin "Şimal axını 2" layihəsinə münasibətdə hüquqi tətbiqinin müdafiəsini davam etdirdiyini bildirib:"Paris prinsipial olaraq istənilən eksterritorial tədbirlərə qarşı çıxır. Bu təkcə "Şimal axını 2" layihəsilə bağlı məsələ deyil. Fransa bununla bağlı ABŞ rəhbərliyini də xəbərdar edib". Amma fakt budur ki, ABŞ sankisayaları nəticəsində "Şimal axını-2"nin inşası dayanıb. Bu vəziyyətdə hesab edilir ki, Avropa gələn il yeni mənbə kimi Azərbaycandan qaz ala biləcək. Xatırladaq ki, Azərbaycan qazının Avropaya nəql edilməsi üçün nəzərdə tutulan "Cənub qaz dəhlizi" son halqas sayılan "Transadriatik" boru kəməri (TAP) məhz 2020-ci ildə istifadəyə veriləcək. İtaliya İqtisadi İnkişaf Nazirliyi tərəfindən Avropa Komissiyasına göndərilmiş Energetika və iqlim üzrə İnteqrasiya edilmiş Milli Plan Layihəsində bu xüsusda deyilir: "İtaliyaya ildə təqribən 8,8 milyard kubmetr qaz idxal etməyə imkan verən, gələcəkdə buraxıcılıq qabiliyyəti ildə 10 milyard kubmetrə qədər artırılacaq TAP kəməri 2020-ci ildə istifadəyə veriləcək". Xatırladaq ki, TAP kəmərinin ilkin gücünün ildə 10 milyard kubmetrə bərabər olması və gələcəkdə onun daha da artırılması planlaşdırılır. Məşhur "The National Interest" jurnalı da yazır ki, Avropa əsas diqqəti məhz Azrbaycana, Xəzərə yönəldəcək. Bildirilir ki, "Transxəzər" kəməri də çəkilsə, Avropa üçün Xəzər daha maraqlı olacaq: "Transxəzər" qaz kəməri təbii qazın Xəzər dənizindən nəql edilməsinin iqtisadi baxımdan yeganə məqsədəuyğun üsuludur, çünki maye qazın belə qısa məsafədə dəniz yolu ilə nəql edilməsi sadəcə sərfəli deyil. "Transxəzər" boru kəməri Avropanın enerji landşaftını dəyişə bilər. Azərbaycan 2018-ci ilin ortalarından "Transanadolu" boru kəməri (TANAP) vasitəsilə Türkiyəyə qaz nəql etməyə başlayıb və gələn il "Transadriatik" qaz kəməri vasitəsilə İtaliyaya nəql etməyə başlayacaq. "Cənub qaz dəhlizi"nin layihə gücünün 31 milyard kubmetrə bərabər olduğunu nəzərə alsaq, gələcək "Transxəzər" qaz kəmərindən qaz nəqlini daha da artırmaq mümkün olacaq. "Transxəzər" qaz kəməri Avropa ölkələrinin digər təchizatçıların inhisarından asılılığını da azalda bilər. Üstəlik, keçən il beş Xəzəryanı ölkə tərəfindən imzalanmış Xəzər dənizinin hüquqi statusu barədə konvensiya boru kəmərlərini yalnız layihədə iştirak edən ölkələrin razılığı ilə çəkməyə imkan verir, bu da öz növbəsində yeni imkanlar yaradır. "Transxəzər" boru kəmərini inşa etməzdən əvvəl Bakı və Aşqabad Xəzər dənizində Azərbaycanın və Türkmənistanın offşor yataqları arasında interkonnektor tikilməsi məsələsini həll etməlidir. Türkmənistanın və Azərbaycanın mövcud qaz yataqlarını birləşdirən interkonnektorun tikintisinə cəmi 500 milyon dollar xərc çəkmək lazım gələcək. İnterkonnektorun olması Avropanın uzunmüddətli enerji təhlükəsizliyinə şərait yaradan böyük nailiyyət olardı. Bu mənada, "Transxəzər" boru kəmərinin tikintisinin başa çatdırılması Birləşmiş Ştatlar üçün də xüsusi diqqət mərkəzində yer almalıdır. Yəni ABŞ "Cənub qaz dəhlizi" və "Transxəzər" boru kəməri kimi alternativ mənbələrdən qaz təchizatı layihələrinin həyata keçirilməsini dəstəkləməlidir". Hesab edilir ki, bu şəraitdə Avropa daha etibarlı şəkildə enerji təhlükəsizliyini təmin edə bilər.




***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Dağlıq Qarabağ üzrə danışıq sənədləri açıldıqca İrəvana beynəlxalq təzyiqin yeni dalğası başlayır



**Dağlıq Qarabağ münaqişəsinin həllinin Ermənistanın qeyri-konstruktiv mövqeyi üzündən uzanmasının işğalçı ölkənin özü üçün də ciddi təhdid mənbəyi olması bu gün İrəvanda da açıq etiraf olunur. O da açıq şəkildə bildirilir ki, indiki vəziyyətin yaranmasının əsas günahkarı elə Ermənistanın özüdür.**

Məsələn, Ermənistan Respublika Partiyasının sədr müavini Armen Aşotyan qeyd edir ki, məhz baş nazir Nikol Paşinyan Qarabağ məsələsini tükənmiş diplomatik nöqtəyə gətirərək hər şeyi məhv edib. O, belə vəziyyətdə Ermənistan üçün qorxulu olacaq savaş təhdidinin sürətlə artdığını da bildirir.

Elə erməni vəkil Norayr Norikyan da Azərbaycanla savaşı Paşinyana məsləhət görmür. O qeyd edib ki, Ermənistanın həm Türkiyə, həm də Azərbaycandan geri qaldığı göz qabağındadır: "Gəlin özünüaldatma ilə məşğul olmayaq: nə indi, nə də yaxın gələcəkdə Ermənistan obyektiv olaraq potensial rəqiblərinin ordu sayına və ya silahlanma səviyyəsinə çatmağa ümid edə bilməz. Real iqtisadi tərəqqi və ciddi inkişaf olmadan bu hərbiləşmə yarışında ciddi problemi həll etmək, çətin ki, mümkün olsun". O qeyd edib ki, Azərbaycan yeni silahlar hesabına mövqeyini daha güclü hala gətirir. Məhz belə vəziyyətdə Beynəlxalq Böhran Qrupu da yeni savaşın Ermənistan üçün ciddi problem yaradacağını bəyan edir. Xatırladaq ki, qurum "Dağlıq Qarabağ məsələsini dalandan çıxarma" adlı hesabat hazırlayıb. Burada qeyd olunur ki, Dağlıq Qarabağ regionu ilə bağlı Ermənistanla Azərbaycan arasında sülh prosesində açılmış dar nəfəslik yenidən bağlana bilər. Hesabatda bildirilir ki, bu baş verərsə, Bakı və İrəvan nəinki indiyə kimi əldə etdiklərini itirə, həm də prosesi tamamilə dəfn edə bilər: "Bakı və İrəvan çevik hərəkət etməlidir. Onlar ziddiyyətli mövqelərin kökündə duran məsələlər istiqamətində danışıqlara başlaya bilərlər". Hesabatda qeyd olunur ki, 2019-cu ilin əvvəlində münaqişənin həlli istiqamətində danışıqlarda irəliləyiş hiss olunub: "Ermənistanın yeni hökuməti kompromisli həlli axtarmağa hazır olduğunu bildirmişdi. Bakının da münaqişənin həlli yollarının axtarışı üçün daha açıq olduğu göründü. Aprel hadisələrindən sonra yenilənmiş diplomatik münasibətlər itkilərin azalmasına və danışıqlar üçün daha münasib mühitin yaranmasına gətirib çıxardı. Azərbaycan və Ermənistan hökumətləri təmas xəttində humanitar layihələrin həyata keçirilməsinə razılıq verdi, jurnalistlərin qarşılıqlı səfərlərinə və həbs olunmuş şəxslərin yaxınlarına baş çəkməsinə icazə verildi". Qeyd olunur ki, buna baxmayaraq, yeni yanaşma danışıqların yenilənməsinə yol açmayıb. Hesabat müəlliflərinin fikrincə, illər mövqeləri sərtləşdirib.

Buna da diqqət çəkilir ki, danışıqların hər dəfə dalana dirənməsi Ermənistan üzündən baş verir. Qarabağa dair "Lavrov planı" buna əyani misal kimi göstərilir. Qeyd edək ki, Qarabağa dair "Lavrov planı"nın mövcudluğu barədə bir neçə ildir danışılırdı. Düzdür, erməni tərəfi də "Lavrov planı" adlı sənəd görmədiyini dəfələrlə bildirib. Amma Bakıdan belə sənədin olduğunu bir neçə dəfə deyiblər. Həmin sənədin "Madrid prinsipləri"inə əsaslandığı da məlumdur və xarici işlər naziri Elmar Məmmədyarov CBC kanalaına son müsahibəsində də məhz bu sənəd əsasında Bratislavada erməni həmkarı ilə danışıqlar aparıldığını bildirib. Beynəlxalq Böhran Qrupu bildirir ki, "Lavrov planı" ilk dəfə 2015-ci ildə Rusiya xarici işlər naziri Sergey Lavrov tərəfindən müzakirəyə təqdim edilib və 2016-cı ildə təsdiqlənib:"Plan Rusiya silahlı qüvvələrinin Dağlıq Qarabağ ətrafında yerləşdirilməsini və erməni qoşunlarının ətraf rayonlardan tədricən çıxarılmasını, regiona qeyri-müəyyən müddətə "müvəqqəti status" verilməsini nəzərdə tuturdu. Lakin plan Dağlıq Qarabağın yekun statusuna dair referendumun necə baş tutacağına və yekun hüquqi statusun necə olacağına aydınlıq gətirmirdi. Azərbaycan bu konsepsiyanı dəstəkləyib, ümid edib ki, plan ətraf rayonların qaytarılmasının və münaqişə regionundakı erməni qüvvələrinin sayının azaldılmasının əsasını qoyacaq. Zamanla Azərbaycan hakim elitası getdikcə belə qənaətə gəlməyə başladı ki, Rusiya münaqişənin istənilən nizamlanmasının tərkib hissəsi olacaq. Doğrudan da 2016-cı ildə Azərbaycan hökuməti Rusiyanın rəhbərliyi ilə Dağlıq Qarabağda sülhməramlı qüvvələrin yerləşdirilməsinə açıq idi, ümid edirdi ki, bu qüvvələr erməni işğalçı qüvvələrini əvəz edəcək və Azərbaycanın nəzarətinə qaytarılan ərazilərə köçürülən əhalinin təhlükəsizliyini təmin etməyə imkan verəcək. Lakin İrəvan bu təklifi rədd etdi. Xəbərlərə görə, Ermənistanın bəzi rəsmi şəxsləri təklifin Azərbaycanın maraqlarına uyğun olduğunu bildirməklə, hətta bəyan ediblər ki, sənəd Bakıda tərtib edilə bilərdi". Hesabat müəllifləri vurğulayır ki, indi Ermənistanın real addımlar atmaması, Qarabağda hələ də qanunsuz məskunlaşma siyasəti aparması savaş təhdidini artırır. Beynəlxalq Böhran Qrupu bu vəziyyəti təhlükəli adlandırır. Bildirilir ki, son aylar Ermənistan-Azərbaycan münasibətləri tərəflərdən birinin digərinin açıqlamasını təxribatçı hesab etməsindən sonra daha da soyuyub. Hər iki tərəf 2019-cu ildə qurulmuş bünövrəyə istinad etməsə, sabit vəziyyət uzun çəkməyə bilər. Hesabatda bildirilir ki, kompromisin axtarılması istiqamətində təkrar səylər gərginliyin yaranmasının qarşısını ala bilər. Amma Ermənistan üzündən bu sahədə ciddi əngəl yaranıb. Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva da məsələyə məhz bu prizmadan yanaşır: "Öncə qeyd etmək istərdim ki, biz, əlbəttə ki, Beynəlxalq Böhran Qrupunun Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı vacib məsələləri gündəmdə saxlamasını alqışlayırıq. Əslində, BBQ hazırladığı son hesabatında yeni hər hansı bir məsələyə toxunmur; illərdir ki, Azərbaycan tərəfindən qaldırılan, danışıqlar prosesində müzakirə obyekti olan mühüm mövzulara diqqət ayırır. Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlarında işğalçı Ermənistan tərəfindən qeyri-qanuni məskunlaşdırma siyasətinin həyata keçirildiyi dəfələrlə tərəfimizdən beynəlxalq müstəvidə, o cümlədən ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Ermənistan tərəfi ilə keçirilən görüşlərdə qaldırılıb. BBQ də son hesabatın ölkəmizin işğal olunmuş ərazilərində bu qeyri-qanuni fəaliyyətin davam etdirildiyini qeydə alır. İşğal olunmuş ərazilərdə beynəlxalq sülh missiyasının yerləşdirilməsi və ATƏT-in Yüksək Səviyyəli Planlaşdırma qrupunun (HLPG) bu xüsusda rola gəldikdə isə qeyd etmək istərdik ki, işğal olunmuş ərazilərdə yaşayan əhalinin, o cümlədən azərbaycanlı və erməni icmalarının təhlükəsizliyi məsələsi bizim üçün önəmlidir. Biz bu səbəbdən ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəfindən müvafiq beynəlxalq ekspertlərin iştrakı ilə risqin qiymətləndirilməsi missiyasının həyata keçirilməsinin tərəfdarıyıq.

Hesabatda qaldırılan status məsələsinə gəldikdə isə, xatırlatmaq lazımdır ki, ümumilikdə status məsələsi Azərbaycanın milli qanunvericiliyi, BMT Nizamnaməsi və Helsinki Yekun Aktında əks olunan fundamental norma və prinsiplərə əsaslanan BMT Təhlükəsizlik Şurasının qətnamələri də daxil olmaqla beynəlxalq hüquq çərçivəsində artıq müəyyən olunub. Bu xüsusda hər zaman ifadə etdiyimiz mövqeyimiz dəyişilməz olaraq qalır. Münaqişənin həlli istiqamətində işğal olunmuş torpaqlarımızdan erməni silahlı qüvvələri çıxarıldıqdan və öz torpaqlarından didərgin salınmış azərbaycanlılar evlərinə geri qayıtdıqdan sonra gələcək mərhələdə bölgənin statusunun konkret şəkildə müəyyənləşdirilməsi məsələsinə hər iki icmanın iştirakı ilə baxıla bilər. Beynəlxalq təşkilatlar Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hesabatlarında nəzərə almalıdırlar ki, münaqişənin həllinin hüquqi əsasını təşkil edən qərar və qətnamələrin, birinci növbədə isə BMT TŞ qətnamələrinin yerinə yetirilməsi zəruridir. Onların yerinə yetirilməsi isə yalnız zaman məsələsidir".

Elə Beynəlxalq Böhran Qrupu da xatırladır ki, azərbaycanlılar müharibə zamanı yaşadıqları ərazilərdən köçməyə məcbur ediliblər: "Danışıqlar üçün şəraitin yaranması üçün ilk şərtlərdən biri Ermənistanın Dağlıq Qarabağdakı de-fakto rəhbərliyi məskunlaşma planını müvəqqəti olaraq dayandırmağa, Azərbaycanı isə bunun əvəzində beynəlxalq məhkəmələrdə münaqişənin həlli ilə bağlı şikayətlər irəli sürməsini dayandırmağa və sanksiyalar irəli sürməməyə inandırmaqdır. İkinci şərt potensial sülhməramlı qüvvələrin və monitorinq missiyasının tərkibi və mandatı ilə bağlıdır. Bu missiya zorakılığı azaltmağa, sülh sazişi üçün şərait yaratmağa nail ola bilər. Sonuncu məsələ Dağlıq Qarabağın statusudur.

Status məsələsi münaqişənin əsasında durur və həlli çətindir. Bakı Azərbaycanın tərkibində Dağlıq Qarabağa özünüidarəçilik verməyi təklif edir". Hesab edilir ki, Ermənistan bu təklifi qəbul etməsə, Azərbaycanın müharibəyə başlaması qaçılmazdır. Amma bu zaman məsuliyyət daşıyan tərəf qismində Ermənistan çıxış etməli olacaq. Məhz bu da İrəvanın Qarabağ siyasətinin beynəlxalq miqyasda yenidən tənqid hədəfində olduğunu göstərir. Aydındır ki, bu hal həm də Azərbaycanın daha bir diplomatik uğuru da sayıla bilər. İrəvan bundan lazımı nəticə çıxarmasa, düşməni hərblə başa salmaq qaçılmaz olacaq.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Bu il pambıqdan 111 milyon dollar gəlir - pambığı 1 milyon tona çatdırmağı bacarmayan icra başçıları olmasaydı...

**Nicat Nəsirli:** *"Pambıqçılığa kompleks yanaşma olsa, innovasiyalardan istifadə edilsə, əldə etdiyimiz gəlir indikindən qat-qat böyük olacaq"*

**Son illər ölkəyə daha çox valyuta gətirən kənd təsərrüfatı məhsullarının istehsalına geniş meydan açılıb. Bu sahədə yaradılan əlverişli şərait, iqtisadi potensialdan səmərəli istifadə, ixracyönümlü məhsul istehsalının təşviqi üçün həyata keçirilmiş tədbirlər də, öz növbəsində, ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafında mühüm nəticələr əldə etməyə imkan yaradır.**

Prezident İlham Əliyev pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlərlə bağlı keçirilən müşavirədə bildirdi ki, 2019-cu ilin doqquz ayında pambıqçılıq Azərbaycana 111 milyon dollar gəlir gətirib: "111 milyon dollar dəyərində məhsul, o cümlədən, 87 milyon dollarlıq mahlıc, 22,5 milyon dollarlıq pambıq ipliyi və 2 milyon dollarlıq pambıq yağı ixrac edilib. Eyni zamanda, pambıqçılıq sənayesinin tullantılarından heyvan yemi kimi də istifadə olunur. Pambıq yığımı, demək olar ki, başa çatıb. Bu il rekord göstərici əldə olunub, 294 min ton pambıq yığılıb və hər hektardan məhsuldarlıq orta hesabla 29,4 sentner təşkil edib. Bu, doğrudan da çox böyük göstəricidir və onu göstərir ki, son illər ərzində pambıqçılıqda inkişafla bağlı atılmış bütün addımlar öz səmərəsini verməkdədir. Bu bir daha onu göstərir ki, dövlət dəstəyi olmadan pambıqçılıq inkişaf edə bilməz".

Statistikaya nəzər salsaq görərik ki, sovet dönəmində Azərbaycanda 200 min hektarda pambıq əkilib. Birinci mərhələdə 300 min tona yaxın məhsul götürülüb. Yəni məhsuldarlıq orta hesabla 15 sentner səviyyəsində idi. Ancaq 1980-ci illərin əvvəllərində həm məhsuldarlıq artaraq 30 sentnerə yaxınlaşıb, hətta bir neçə ildə 30 sentnerdən də üstün idi və pambıq tədarükü sabit surətdə təqribən 800 min ton səviyyəsində olub. 1981-ci ildə isə bu rəqəm 1 milyon tona qalxıb. Sonrakı dövrdə pambıqçılıqda məhsuldarlıq aşağı düşdü.

Sön illər dövlətin pambıqçılığın inkişafına marağı artıb. Bunun nəticəsidir ki, son 4 ildə məhsuldarlıq 35 min tondan 294 min tona yüksəlib. "Pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"nda xam pambıq istehsalının 500 min tona çatdırılması qarşıya məqsəd qoyulub.

Bütün bu deyilənlərin fonunda, 300 min tona yaxın pambıqdan 111 milyon dollar gəlir əldə edilibsə, pambıq istehsalı 1 milyon tona çatdırılsa, o zaman bundan nə qədər gəlir əldə olunacaq?

Məsələyə münasibət bildirən kənd təsərrüfatı məsələləri üzrə ekspert Nicat Nəsirlinin fikrincə, pambıqçılığın inkişafı ilə bağlı kompleks işlər görülsə, o zaman bundan əldə olunan gəlirlərin həcmi qat-qat böyük olacaq: "Bir məqamı qeyd edim ki, pambıq əkini sahələrini əvvəlki kimi genişləndirə bilmərik. Bunun bir sıra obyektiv və subyektiv səbəbləri var. Başlıca səbəbi onunla bağlıdır ki, pambıq əkini üçün çox yararlı olan torpaqlarımızın bir qismi işğal altındadır. O üzdən, hazırda pambıq əkini 14-15 rayonda aparılır. Bunlar əsasən Aran rayonlarıdır. Aran rayonlarında da torpaqların meliorativ vəziyyəti, strukturu ötən illər ərzində kifayət qədər pisləşib. Ümumi torpaq fondumuzun hardasa 47 faizi şoranlaşıb və digər proseslərə məruz qalıb. Ona görə də birdən-birə pambıq istehsalını o səviyyəyə qaldırmaq çətindir. Həm də ona görə ki, pambıq texniki bitkidir. Burada ilkin və dərin emal sənayesi tələb olunur. Biz hələ ki, emal sənayesini şaxələndirə bilməmişik. Pambığı yalnız xammal şəklində sata bilirik. Hesab edirəm ki, biz mövcud potensialımızı düzgün dəyərləndirə bilsək, pambıqçılıqdan böyük həcmdə gəlir əldə edə bilərik. Bu gün elə innovasiyalar var ki, onları pambıq istehsalına tətbiq edib məhsuldarlığı artırıb daha çox gəlir əldə etmək mümkündür. Yəni əkin sahələrini artırmaqla yox, digər vasitələrlə daha çox gəlir əldə etmək olar. Buna necə nail olmaq olar? Ən başlıcası, heç şübhəsiz, burada emal zənciri olmalıdır. Biz hazırda pambığı xammal şəklində satdığımız halda 111 milyon dollar qazanmışıq. Bundan əldə etdiyimiz gəliri verib hazır trikotaj məhsulları alırıq. Ona görə də ölkədə çox güclü emal sənayesi qurulmalıdır. Özü də pambıq emalı bir istiqamət üzrə yox, bir neçə istiqamət üzrə olmalıdır. Çünki pambıqdan bir neçə cür məhsul alınır. Belə ki, mahlıc, iplik və digər trikotaj məhsulları alınır. Sovet dönəmində pambıqçılıqda əldə olunan uğurun kökündə emal sənayesinin mükəmməl qurulması dayanırdı. Pambıqçılıqda rentabelliyi artırmaq üçün hökmən milli toxumçuluq sistemi yaratmalıyıq. Bu gün biz toxum məsələsində birmənalı olaraq xaricdən asılıyıq. Məsələn, 100 min hektarda pambıq əkmək üçün biz 11 milyon dollardan artıq toxuma pul veririk. Hansı ki, həmin toxumlar bizim region üçün o qədər də xarakterik deyil, gec yetişir. Ona görə də yerli xüsusiyyətlərə uyğun toxum sortları yaradılmalıdır. Tezyetişən sortlar yaradılmalıdır".

N.Nəsirlinin fikrincə, dünyada harada pambıqçılıq inkişaf edirsə, orada yan sahələr də inkişaf edir: "Məsələn, pambıqçılığın inkişafı heyvandarlığa da müsbət təsir edir. Pambığın müəyyən tullantıları olur. Adicə pambıq əkilən sahənin özü heyvandarlıq üçün bir yem mənbəyidir. Pambıq emal ediləndən sonra çiyid əldə olunur. Çiyidin tullantıları heyvandarlıq üçün qiymətli yem mənbəyidir. Biz hələ buna nail ola bilməmişik. Hesab edirəm bu çox vacibdir. Digər tərəfdən, pambıq olan yerlərdə arıçılıq çox geniş inkişaf edir. Pambıqdan alınan bal dünyada satılan ən bahalı ballar sırasındadır. Pambıqçılıq həm də təkrar əkinçiliyə, torpaqların münbitləşməsinə təkan verir. Başqa bir tərəfdən, pambıq çöpləri mebel sənayesi üçün vazkeçilməz xammal mənbəyidir.

Hələ də bizdə mebel sənayesi xammalı kənardan gətirir. Hesab edirəm ki, pambıqçılığa kompleks yanaşma olsa, innovasiyalardan istifadə edilsə, əldə etdiyimiz gəlir indikindən qat-qat böyük olacaq. Ümumdaxili məhsul dövriyyəsinin 5 milyard manatı kənd təsərrüfatının payına düşür. Həmin gəlirin də tən yarısı ilə biz trikotaj və tekstil məhsulları alırıq. Pambıqçılığı inkişaf etdirməklə, ən azından, bunun qarşısını alarıq. Yəni, ən azı, 2 milyard manatlıq idxalın qabağını ala bilsək, bunun özü böyük şeydir. Üstəlik, pambıqçılıqla bağlı sənaye sistemi qurulsa, çoxsaylı insan işlə təmin ediləcək".



*"...2 milyard manatlıq idxalın qabağını ala bilsək..."*

***Vidadi ORDAHALLI***

# Milli pambıqçılıqda iplik və yüngül sənaye müəssisələri problemi...

**Bu gün ölkədə ən dinamik şəkildə inkişaf edən sahələrdən biri kimi aqrar sektorun çıxış etməsi heç kimə sirr deyil. Dövlət tərəfindən göstərilən xüsusi diqqət aqrar sahənin tərəqqisində yeni mərhələ açıb. Ümumiyyətlə, son illər dövlət tərəfindən kənd təsərrüfatı sahəsində həyata keçirilən tədbirlər və dəstək mexanizmləri sayəsində bu sektorda əsaslı inkişaf qeydə alınır.**

Xüsusilə də "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" təsdiq edildikdən sonra kənd təsərrüfatının bütün sahələri üzrə artım müşahidə olunur. Belə ki, 2018-ci ildə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq üzrə ümumi daxili məhsul 2015-ci illə müqayisədə 24,7 faiz artaraq 4,2 milyard manata çatıb. 2019-cu ilin yanvar-noyabr ayları ərzində isə kənd təsərrüfatı məhsullarının ümumi istehsal həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,1 faiz artıb. Görülən tədbirlər sayəsində dinamik artımın davam etməsi gözlənilir.

Aqrar sahədə müəyyən istiqamətlər üzrə daha yüksək nəticələrin əldə eilməsi də diqqət yetirilən əsas istiqamətlərdən biridir. Artıq məlumdur ki, dövlətin xüsusi diqqət yetirdiyi sahələrdən biri də pambıqçılıqdır və son illər ərzində pambıqçılığın inkişafı ilə bağlı atılmış addımlar öz səmərəsini verməkdədir. Ölkədə artan istehsal da bunun əyani təsdiqi sayıla bilər. Digər tərəfdən, indi bu sahədə ən qabaqcıl texnologiyalar belə tətbiq edilir. Belə ki, Kənd Təsərrüfatı Nazirliyi tərəfindən müxtəlif ölkələrin qabaqcıl təcrübələri öyrənilir və pilot layihələr həyata keçirilir. Eyni zamanda, innovativ texnologiyalardan istifadənin genişləndirilməsi məqsədilə nümunəvi təsərrüfatların yaradılmasına başlanıb. Məsələn, artıq məlmdur ki, Ucar rayonunda Çin texnologiyası və Beyləqan rayonunda Türk texnologiyası əsasında pambıq istehsalı üzrə pilot layihələr həyata keçirilib. Çin texnologiyası ilə hər hektardan 60 sentner, Türk texnologiyası ilə isə 58 sentner xam pambıq istehsal olunub.

O da bəllidir ki, bu istiqamətdə görülən işlərin əsas məqsədlərindən biri də aqrar sahədə məşğulluğun artımına nail olmaqdır. Ekspertlər də bildirir ki, həyata keçirilən siyasətin bir məqsədi məhz əhalinin rifahını yüksəltməkdir. O baxımdan ki, pambıqçılıq yüksək əməktutumlu sahələrdən biridir. Pambıqçılığın paralel olaraq digər sahələrin də inkişafını stimullaşdırması bu sahənin sosial əhəmiyyətini daha da artırmış olur. Eyni zamanda, hesablamalara görə, məhsuldarlıq göstəricisinin 30 sentnerə çatdırılması hər hektar pambıq sahəsindən təxminən 1500 manata yaxın mənfəəti təmin edir. Amma real vəziyyət burada bəzi problemlərin olduğunu da üzə çıxarır. Söhbət artan istehsal fonunda emal sahəsinin azlığından gedir.

Bu barədə danışmazdan əvvəl qeyd edək ki, artıq ölkədə pambıq yığımı başa çatıb və elə bu günlərdə Prezident İlham Əliyevin yanında keçirilən müşavirədə əldə olunan nəticələr müvafiq icra orqanlarının iştiraki ilə müzakirə olunub. Burada bir daha bəlli oldu ki, son üç ildə hər hektar üzrə orta məhsuldarlıq 15 sentnerdən 30 sentnerə, ümumi tədarük həcmi isə dəfələrlə artırılaraq 294 min tona çatdırılıb. Tədarük probleminin həlli də burada öz sözünü deyir. Xatırladaq ki, əvvəlki illərdə pambıq tədarük edən cəmi bir şirkətin olması və qiymət başda olmaqla, bütün istehsal şərtlərinin tədarükçü şirkət tərəfindən müəyyən edilməsi fermerləri qane etmədiyi üçün pambıq əkininə maraq az idi. Buna paralel olaraq, texnika və avadanlıq çatışmazlığı, əl əməyinə ehtiyacın çox olması, xüsusilə əllə yığım istehsalın maya dəyərinin artmasına səbəb olurdu. Suvarmada olan çətinliklər də məhsuldarlığın və pambıqçılıqda rentabelliyin aşağı düşməsinin başlıca səbəbləri idi. Amma son 4 ildə vəziyyət dəyişdi. Xüsusən də 2015-ci ildən etibarən pambıqçılığa yeni yanaşma burada tənəzzülün dayanmasını və inkişafın təmin olunmasını dəstəklədi. Belə ki, yeni yaradılmış tədarükçü şirkətlərin texniki bazasının formalaşdırılması üçün dövlət dəstəyi göstərildi və nəticədə tədarükçü şirkətlərin fermerə dəstək imkanları artdı. Şirkət dəstəyi ilə fermerlərin daha ucuz və keyfiyyətli xidmətin əlçatanlığı ilə aqrotexniki tədbirlərin vaxtında aparılması təmin edildi. Yüksək məhsuldarlıq üçün dövlət tərəfindən güzəştli qiymətlərlə mineral gübrə və pestisidlərin təmin edilməsi də öz sözünü dedi. Dövlət tərəfindən hər kiloqram pambığa görə subsidiya verilməsi bu sahəyə marağın artmasına, paralel olaraq fermerin məhsuldarlığa diqqətinin çoxalmasına imkan verdi. Bu fonda hesab edilir ki, 2020-ci ildən etibarən hər hektar pambıq əkini üçün əlavə 220 manat torpaq subsidiyasının verilməsi pambıqçılığa marağın daha da atmasını təmin edəcək.



O da faktdır ki, son illərdə məhsuldarlığa paralel olaraq ümumi istehsal həcminin artması fonunda mahlıc və pambıq ipliyinin ixracında artım müşahidə olunur. İndi pambıq və iplik qeyri-neft məhsulları arasında ixrac həcminə görə 3-cü sırada qərarlaşıb. İri ixracatçı şirkətlərin sıralamasına nəzər salsaq, əksər pambıq tədarükü ilə məşğul olan şirkətlərin adı ilk onluğa daxil olub. Ən böyük ticarət tərəfdaşlarımız olan Türkiyə və Rusiyanın pambıq mahlıcına olan tələbini nəzərə alsaq, ölkəmiz daha böyük həcmdə ixrac potensialına malikdir. Amma real vəziyyət burada emal sahəsində çatışmazlıqların olduğunu göstərir. Bunu ekspert Cəfər İbrahimli də diqqətə çatdırır:"Hazırda pambığın xammal kimi ixracından daha çox, əlavə dəyər zənciri yaratmaq məqsədilə yeni iplik və yüngül sənaye müəssisələrinin fəaliyyətinin genişləndirilməsinə ehtiyac var. Digər tərəfdən, ölkədə pambıq tədarükünün davamlılığının təmin olunması, yüngül sənaye müəssisələrinin yaradılması və fəaliyyətinin bərpa olunması fonunda daxili bazarın bu mallara olan tələbatının qarşılanmasına və bu sahədə idxalın azaldılmasına dəstək veriləcəyi gözlənilir. Eyni zamanda, pambıqçılığın inkişafı kənd yerlərində, eləcə də yüngül sənayenin inkişafı fonunda şəhər və rayon mərkəzlərində məşğulluğun artmasına kömək edəcək". Hesab edilir ki, yeni iplik və yüngül sənaye müəssisələrinin yaradılması geniş vüsət alsa, Azərbaycan pambıqçılıqdan daha çox qazanar. Bu mənada, özəl sektorun həmin sahəyə cəlb edilməsinə də ehtiyac böyükdür.

***Ramil QULİYEV***

**Ölkədə aparılan islahatlar fonunda dövlətin əsas məqsədlərindən biri də onun fəaliyyətinə ictimai nəzarətin təmin olunmasıdır. Bunun üçün isə müvafiq zəmin məhz ictimai iştirakçılığın təmin edilməsidir.**

# Şəhər, rayon icra hakimiyyətlərinin fəaliyyətinə ictimai nəzarət şuraları - İdeya necədir...

***Sahib Məmmədov:** "Olmağını məqsədəuyğun sayıram"*



Prezident İlham Əliyev də yeni təyin etdiyi rayon icra başçılarını qəbul edərkən kadr islahatlarının yerli icra orqanlarında ictimai nəzarətə "qapı açmalı" olduğunu vurğulayıb. Ölkə başçısı bildirib ki, ictimai nəzarət rayonlarda daha güclü olmalıdır: "Buna nail olmaq üçün müvafiq təkliflər hazırlayın. İctimaiyyəti bizim ümumi işimizə cəlb etməliyik. Həm ictimaiyyət nümayəndələri öz səylərini göstərsinlər, həm də sizin işinizə, dövlət orqanlarının işinə nəzarət etsinlər. Əgər biz buna nail olsaq, onda hər hansı bir xoşagəlməz hadisə baş verərsə, biz dərhal ondan xəbər tutub lazımi tədbirləri görəcəyik. Bir çox hallarda rayonlardan gələn məlumat belədir ki, hər şey əladır, hər şey yaxşıdır, biz burada bütün işləri ən yüksək səviyyədə qururuq. Amma dərindən baxanda görürsən, belə deyil, bəzi icra başçıları tərəfindən yalan məlumatlar ötürülür".

Son günlər bəzi rayon icra başçıları ilə bağlı baş verən neqativ halların ictimailəşməsi bu mövzunu yenidən gündəmə gətirib. Hesab edilir ki, şəhər, rayon icra hakimiyyətlərinin fəaliyyətinə ictimai nəzarət şuralarının yaradılması yerli icra hakimiyyəti orqanlarının işinə böyük fayda verə bilər. İctimai əsaslarla işləyən şuraların fəaliyyəti ictimai nəzarəti həyata keçirməklə yanaşı, dövlət qurumlarının işinə təmənnasız fayda verməkdən ibarət olacaq və şəffaflığın təmin olunmasına böyük faydası dəyəcək. Şəffaflığın tam təmin olunması üçün şəhər, rayon icra hakimiyyətlərinin fəaliyyətinə ictimai nəzarət şuralarının yaradılması ideyasına ekspertlər necə baxırlar?

Əmək Hüquqlarının Müdafiə Liqasının sədri Sahib Məmmədov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə şuraların yaradılması, əslində, qanunun tələbidir: "Bunun təşəbbüskarı kimi həm də QHT-lər çıxış etməlidirlər. Burada təkcə iştirakçı yox, həm də səsverən QHT-lər lazımdır. Məsələn, 50-yə yaxın QHT toplaşmalıdır, onların arasından azı 5-i ictimai şura üzvü seçilməlidir. Biz bilirik ki, bizim rayonların əksəriyyətində bu sayda QHT yoxdur. Elə rayonlar var ki, bunu yaradıblar. Yaratmaq üçün yeganə problem odur ki, icra başçılarının istəyi və zəruri sayda QHT olsun".

"Deyilən sayda QHT olmasa, həmin şuraların yaradılmasının başqa mexanizmi varmı" sualına ekspertin cavabı belə oldu: "Yalnız QHT-lərdən söhbət getmir. Vətəndaş cəmiyyəti təmsilçilərindən söhbət gedir. 5 adda strukturun təmsilçiliyi olmalıdır. Bunlar: QHT-lər, KİV, həmkarlar ittifaqları, bələdiyyələrin məhəllə komitələri, bir də vətəndaşların təşəbbüs qruplarıdır. Belə şuraların formalaşması çox yaxşıdır. Qeyd edim ki, ictimai iştirakçılığın bundan başqa da 4 növü var. O da təsdiq oluna bilər. Bunun üçün icra hakimiyyətləri əhalinin rəyilə hesablaşmalıdırlar. Məsələn, rayonda hansısa parkı salırlar, bunun üçün əhalinin rəyini öyrənirlər. Bizdə belə hallar yoxdur. Demirəm ki, bu şuralar yaranan kimi hər şey şəffaflaşacaq. Amma olmağını məqsədəuyğun sayıram. Biz QHT-lərə Dövlət Dəstəyi Şurası partnyor qurum kimi ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi ilə 33 rayonda belə şuraların təşkili üçün təlimlər təşkil etdik. Həmin vaxt mən layihənin ekspertiydim. Cəmi 1-2 rayon buna maraq göstərdi. Qalanlarında yaranmadı. Hesab edirəm ki, hazırda buna böyük ehtiyac var".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Məlum olduğu kimi, Azərbaycanda növbəti - 5-ci bələdiyyə seçkiləri keçirilir. Seçkilər zamanı ölkə üzrə 1606 bələdiyyəyə 15 min 156 üzv seçiləcək. Bələdiyyə seçkiləri ölkə üzrə 5049 məntəqəni əhatə edir, seçicilərin sayı 4 milyon 972 min 356 nəfərdir.**

# Yeni bələdiyyələr də indikilər kimi nüfuzsuz ola bilərmi...

***Məhərrəm Zülfüqarlı:** "Prezidentin keçirdiyi islahatlar deməyə əsas verir ki, budəfəki bələdiyyələr əvvəlkinə nisbətən daha aktiv olacaqlar"*



Seçkilərlə əlaqədar bütün siyahılar dəqiqləşdirilməklə yanaşı, şəffaflığın təmin edilməsi üçün 1000 məntəqədə vebkameralar quraşdırılıb. 1606 bələdiyyə üzrə çap olunmuş bülletenlərə 41 min 462 namizədin adı daxil edilib. Bundan əlavə, 5 milyon 20 min 287 seçki bülleteni çap olunub. Seçkilərdə 13 siyasi partiyanın üzvləri namizəd kimi qeydə alınıb.

O da məlum həqiqətdir ki, Azərbaycanda bələdiyyələr hələ də cəmiyyətdə öz yerini tapmayıb. Bələdiyyələr daha çox fəaliyyətsiz bir quruma çevriliblər. Onlar, faktiki olaraq, icra hakimiyyətlərinin əlinin altında ikinci dərəcəli bir qurum kimi fəaliyyət göstərirlər. Düzdür, bələdiyyələr haqqında qanunlar təkmilləşdirilir, yeni qanunlar qəbul edilir. Bunlara baxmayaraq, bələdiyyələrin fəaliyyəti gözə görünmür. İndiyə qədər ölkədəki bələdiyyələr nüfuzsuz özünüidarəetmə orqanı təsiri bağışlayıb. Bələdiyyələrin işini əsasən yerli icra qurumları görüb.

Ancaq onu da nəzərə almaq lazımdır ki, son illər ölkədə köklü struktur islahatları aparılır. Bir-birini təkrar edən qurumlar ləğv edilir, bir sıra qurumlar birləşdirilir. Dövlət idarəçiliyinin təkmilləşdirilməsi istiqamətində işlər görülür. Bu cür atmosferdə ölkədə bələdiyyə seçkilərinin keçirildiyini nəzərə alsaq, yeni bələdiyyələrlə bağlı müəyyən gözləntilər varmı? Yəni yeni bələdiyyələr də indikilər kimi nüfuzsuz olacaq, yoxsa bunun əksini görəcəyik?

Məsələyə münasibət bildirən Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, bu dəfə bələdiyyələrdən müəyyən gözləntilər var: "Prezidentin keçirdiyi islahatlar deməyə əsas verir ki, budəfəki bələdiyyələr əvvəlkinə nisbətən daha aktiv olacaqlar. Ölkədəki islahatlarla bağlı belə gözləntilər var. Ancaq hesab edirəm ki, seçkidən dərhal sonra bələdiyyələrə verilən səlahiyyətlər artırılmalıdır. Ən başlıcası, icra hakimiyyətlərinin bələdiyyələrin işinə müdaxiləsi aradan qalxmalıdır. Bütün bunlar olarsa, bələdiyyələr nüfuz qazanar və inkişaf edər. Bələdiyyələr əvvəlki kimi nüfuzsuz bir qurum olmaz. Dünya ölkələrində yerlərdə bir sıra məsələləri bələdiyyələr görür. Məsələn, ABŞ, Böyük Britaniya kimi ölkələrdə bütün işlərin hamısı bələdiyyələrə həvalə edilir. Ancaq Türkiyə ilə Fransada bu fərqlidir. Yerlərdə ikili hakimiyyət var. Həm bələdiyyə, həm də prezidentin nümayəndəsi idarəçiliyə rəhbərlik edir. Fikrimcə, Azərbaycanda bələdiyyələrə kommunal xidmətlər həvalə edilməlidir. Bizdə bu sahədə ikitirəlikdir. Bəzi yerlərdə bu işi bələdiyyələr görür, digər yerlərdə mənzil-istismar sahələri.

*"Bir sıra xidmətlər bələdiyyələrə həvalə edilməlidir"*

Əslində, MİS-lərin işini bələdiyyələr görməlidirlər. Sonra bir sıra xidmətlər bələdiyyələrə həvalə edilməlidir. Məsələn, məzarlıqlara xidmət bələdiyyələrə həvalə edilməlidir. Çünki yerli əhəmiyyət daşıyır. İcra hakimiyyətlərinin müvəffəqiyyətlə icra edə bilmədikləri digər səlahiyyətlər də bələdiyyələrə həvalə edilməlidir. Yolların, işıq və su xətlərinin çəkilməsi bələdiyyələrə həvalə edilməlidir. Ancaq buna görə bələdiyyələrə səlahiyyət verilməlidir".

***Vidadi ORDAHALLI***

**Bakının bəzi ərazilərində söküntü işləri aparılır. Söküntü aparılarkən plana düşən evlərin sahiblərinə kompensasiya ödənilir. Xüsusən də dəmir yoluna yaxın ərazidə yerləşən evlərin sökülməsinə önəm verilir.**

***Nurxan Kərimov:*** *"Elə vəziyyət yaranıb ki, gecələr küçə itlərinin əlindən çölə çıxmağa ehtiyat edirik"*

***Rüstəm Niyazov:*** *"Evi təmir edə bilmirik, divarlar nəmin içindədir"*

# Bakıda "Şanxay" deyilən yaşayış yerinin söküntüsünü yarımçıq saxlayanlar sakinləri belə təhlükələrə atıblar - sahibsiz itlər, ilanlar...

Belə ərazilərdən biri də Bakının Nizami rayonu, Keşlə qəsəbəsində yerləşən "Şanxay" adlanan ərazidir. "Şanxay"ın təməli ötən əsrin 50-ci illərində qoyulub. Ötən əsrin 50-ci illərinin əvvəllərindən mövcud olan sözügedən yaşayış yeri artıq tarixə qovuşmaq üzrədir. Bir vaxtlar müxtəlif bölgələrdən gələnlər dəmir yolundan 1-2 metr aralı "gecəqondu" tipli evlər tikərək burada məskunlaşıblar. Qəsəbədən dəmir yolu xətti keçdiyi üçün, bəzi sakinlər burada çarəsiz vəziyyətdə yaşadılar. Hətta qatar gəlib vurar deyə, uşaqları oynamağa belə buraxmağa qorxurdular. Nəhayət, 2017-ci ildə "Şanxay"da dəmir yolunun yaxınlığında tikilmiş evlərin sökülməsinə start verildi. 2017-ci ildən söküntü işlərinin aparılacağı deyilən ərazidə 455 ev sökülüb. Ev sahiblərinə mənzilin kvadratına görə kompensasiya ödənilib. Söküntüyə səbəb qəsəbədəki evlərin dəmir yolunun düz kənarında yerləşməsidir. Ancaq problem ondadır ki, söküntü o vaxtdan yarımçıq qalıb. Dəmir yolu ətrafında tikilən bütün evlər sökülməyib.

Sakinlərlə apardığımız söhbətdən belə aydın olur ki, "Şanxay"da evlərin böyük qismi sökülsə də, hələ də çoxsaylı ev sökülməyib. Həmin evlərin nə vaxt sökülәcəyi bəlli deyil. Onlar söküntü işlərinin hansı səbəbdən dayandırıldığını bilmirlər.



Ərazidə yaşayan Nurxan Kərimov bildirdi ki, belə vəziyyətin nə vaxta qədər davam edəcəyi bəlli deyil: "Fakt odur ki, iki ildir söküntü prosesi yarımçıq qalıb. Dəmir yoluna yaxın olduğuna görə bizim evlər də plana düşməli idi, amma nədənsə ev sökülmədi. Nəticədə söküntü işi yarımçıq qaldı. Bizim sırada 4 evi sökmədilər, digər evlər isə gördüyünüz kimi sökülüb. Özünüz görürsünüz ki, sökülən evlər necə xarabazarlığa bənzəyir. Elə vəziyyət yaranıb ki, gecələr küçə itlərinin əlindən çölə çıxmağa ehtiyat edirik. Neçə dəfə itlərin hücumuna məruz qalmışıq. Yayda ilanlar çox olur. İndi qışdı deyə ilan yoxdur. Söküntüdən sonra ərazidə zəif külək olan kimi toztorpaq əlindən tərpənmək olmur. Xüsusən də küləkli havalarda vəziyyət dözülməz olur. Məhz söküntüdən sonra sahibsiz dolaşan itlərin sayı çoxalıb. Çünki əvvəl bu qədər sahibsiz it yox idi. Axşamlar işdən evə gələndə qorxuruq ki, həmin itlər bizə hücum edər. Evlərin hesabına axşamlar məhəllə işıqlandırılırdı. İndi bundan da məhrum olmuşuq. Ona görə ki, evlərin çoxu sökülüb. Çox çətindir belə şəraitdə yaşamaq. Sökürdülərsə, bütün evləri söküydilər də. İndi biz ortalıqda qalmışıq və bilmirik nə edək. Bizə deyən yoxdur ki, haçan evimiz plana düşəcək və biz də işimizi biləkˮ.

"Şanxay"da yaşayan Rüstəm Niyazovun sözlərinə görə, qeyri-müəyyən vəziyyət yaranıb: "Sökülməyən evlərin ətrafında xarabalıqlar yaranıb. Evi təmir edə bilmirik, divarlar nəmin içindədir. Tutaq ki, evi təmir etdik. Bir belə əziyyətdən sonra dedilər ki, sökürük, onda əziyyətimiz də hədər gedəcək. Bir aydınlıq gətirən yoxdur ki, söküntü niyə yarımçıq qaldı? Baxıb görürsünüz ki, Müqabil kişinin evinin olduğu sırada 4 ev qalıb, amma digərləri sökülüb. O birisi tərəfdə, sökülməyini gözləyən evlərin sayı daha çoxdur".

Həqiqətən də sözügedən ərazidə söküntünün yarımçıq qalması ərazidə sanki bir kabus yaradıb. Bir tərəfdə evlər, 10 metr aralıda sökülən evlərin xarabalıqları...

***Vidadi ORDAHALLI***









# Azərbaycanın "Orqanik Xəritəsi"...

***Natiq Cəfərli:*** *"Orqanik məhsulların istehsalı və satışı daha gəlirli sahə sayıldığı üçün, bu tip xəritənin olması vacibdir"*

**"Azərbaycanın orqanik xəritəsi hazırlanacaq. Milli sortlarımız beynəlxalq bazarlarda daha geniş şəkildə tanıdılmalıdır".**

Bunu "Ekoloji Təmiz Məhsul İstehsalçıları və İxracatçıları" İctimai Birliyinin (AOPE) sədri Emin Əliyev bu günlərdə Bakıda keçirilən "Ölkəmizin orqanik məhsul istehsalı və ixracatı potensialı" adlı konfransda çıxışı zamanı deyib.

O qeyd edib ki, bununla bağlı təklif hazırlanıb, yaxın günlərdə donor təşkilatlara təqdim edilməsi gözlənir: "Təbiiliyini qorumuş ərazilərin xəritəsi hazırlanacaq".

Qeyd edək ki, Azərbaycanın orqanik xəritəsinin hazırlanması uzun müddət müzakirə olunurdu. Mütəxəssislər dəfələrlə öz çıxışlarında hər bir bölgənin özünəməxsus xəritəsinin hazırlanmasının vacibliyini qeyd etmişlər.

İqtisadçı-ekspert Natiq Cəfərli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, hazırda bütün dünyada orqanik məhsulların istehsalının genişləndirilməsi məqsədilə xüsusi xəritələr hazırlanır: "Orqanik məhsulların istehsalı və satışı daha gəlirli sahə sayıldığı üçün, qeyd olunan sektora daha çox diqqət ayrılır. İnsanların orqanik məhsula üstünlük verməsi fermerlərin stimullaşdırılmasını zəruri edir. Azərbaycanda da belə bir xəritənin yaradılması vacibdir. Nəzərə almaq lazımdır ki, Azərbaycanın təbii şəraiti imkan verir ki, Azərbaycan orqanik məhsullarla dünyaya çıxsın. Məhsullarla bağlı ayrıca məlumat bazasının olması fermerlərə əlavə imkan verəcək ki, öz məhsullarını lazımi ərazilərdə istehsal etmək barədə məlumatlanmaqla, daha çox gəlir əldə etsinlər.

Məlumat üçün bildirim ki, Azərbaycanın ənənəvi kənd bazarı olan Rusiyada orqanik xəritə elə də məşhur deyil. Bunun da səbəbi adıçəkilən ölkənin iqlim şəraiti ilə bağlıdır. Ancaq ölkəmizin iqlim şəraiti imkan verir ki, müxtəlif növ orqanik məhsullar istehsal edilsin. Beləliklə, ölkəmiz Avropa bazarlarına daha rahat çıxış imkanı əldə edə bilər.

Belə olarsa, fermerlər orqanik məhsulları Rusiya bazarından fərqli olaraq qat-qat baha qiymətə Avropa bazarına çıxa bilərlər".

**Həmsöhbətimiz onu da əlavə etdi ki, orqanik xəritənin olması investorlar üçün də maraqlıdır. Yerli və xarici investorlar xəritə sayəsində ölkənin hansı ərazisində bu və digər məhsula daha çox tələbat olduğunu bilərlər.**

***Günel CƏLİLOVA***

# Cümhuriyyət qurucularının ev muzeyləri hələ də yaradılmayıb

**Azərbaycançılıq ideologiyasının, milli düşüncəsinin təbliği baxımından böyük əhəmiyyət kəsb edən faktorlardan biri milli dövlətçilik irsimizin formalaşmasında yeri, rolu olan şəxsiyyətlərin xatirəsinin müxtəlif formalarda əbədiləşdirilməsidir.**



***Faiq Ələkbərli:** "Cümhuriyyətin qurucusu Məhəmməd Əmin Rəsulzadənin, Cümhuriyyətin baş nazirləri Nəsib bəy Yusifbəylinin, Fətəli Xan Xoyskinin, parlamentin sədri Əlimərdan bəy Topçubaşovun, Həsən bəy Ağayevin və başqalarının mənzil muzeyinin yaradılması olduqca vacibdir"*

Bu gün ən aktual məsələlərdən biri Azərbaycan Xalq Cümhuriyyəti qurucularının vaxtilə Bakıda yaşadıqları mənzillərdə onların xatirə muzeylərinin yaradılmasıdır.

Bir sıra tarixçilər, ictimaiyyət nümayəndələri belə bir ideya irəli sürürlər ki, paytaxtda Məhəmməd Əmin Rəsulzadənin, Nəsib bəy Yusifbəylinin, Fətəli Xan Xoyskinin, Əlimərdan bəy Topçubaşovun və digərlərinin mənzil və xatirə muzeylərinin yaradılması arzuedilәndir və bu məkanlarda onların xatirələri əbədiləşdirilməlidir.

Qeyd edək ki, talelərinə qürbət yazılan Cümhuriyyət qurucularının bir çoxunun irsi ölkəmizə gətirilərək muzeylərdə mühafizə edilir. Amma həmin eksponatların vaxtilə bu şəxsiyyətlərin yaşadıqları mənzillərdə olması daha çox diqqəti cəlb edə bilər. Bəzi ekspertlər hesab edirlər ki, Cümhuriyyət qurucularının böyük əksəriyyətinin Bakıdakı mənzilləri sonradan bolşevik rəhbərlər tərəfindən zəbt edilib. Vaxtilə Bakıda bolşeviklərin mənzil və xatirə muzeylərinin yaradıldığını deyən ekspertlərin sözlərinə görə, bu muzeylər vasitəsilə bolşevizm və o bolşeviklərin irsi geniş şəkildə təbliğ edilirdi. Bu gün Azərbaycan dövlətinin dövlətçilik ideologiyasının əsasını milli dəyərlər, milli düşüncə təşkil etdiyini qeyd edən mütəxəssislərin sözlərinə görə, Cümhuriyyət qurucularının xatirə muzeylərinin yaradılması milli ideologiyamızın bu istiqamətdə təbliğinə bir töhfə olardı.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli "Bakı-Xəbər"ə bildirdi ki, Cümhuriyyət qurucularının, liderlərinin heç birinin Bakıda mənzil muzeyinin olmaması mənfi bir haldır. "Biz bu məsələni dəfələrlə gündəmə gətirmişik. Yəni Azərbaycan Xalq Cümhuriyyətinin liderlərinin, xüsusən də Cümhuriyyətin qurucusu Məhəmməd Əmin Rəsulzadənin, Cümhuriyyətin baş nazirləri Nəsib bəy Yusifbəylinin, Fətəli Xan Xoyskinin, parlamentin sədri Əlimərdan bəy Topçubaşovun, Həsən bəy Ağayevin və başqalarının mənzil muzeyinin təşkil olunması, yaradılması olduqca vacibdir. Cümhuriyyət qurucularının vaxtilə yaşadıqları evlərin üzərinə, sadəcə, xatirə lövhələrinin, barelyeflərin vurulması, onlara büstlər qoyulması ilə kifayətlənmək olmaz, həm də Cümhuriyyət liderlərinin yaşadıqları evləri onların xatirə muzeylərinə çevirmək lazımdır. Bu çox vacibdir. Şübhəsiz ki, bizdə bir çox böyük şəxsiyyətin mənzil və xatirə muzeyi var. Bu gün Bakıda və digər yerlərdə bolşeviklərin də ev muzeyləri qalmaqdadır, bu belədirsə, onda nə üçün Cümhuriyyət qurucularının mənzil muzeyləri olmasın. Əslində, bu şəxsiyyətlərin ev muzeyləri çoxdan yaradılmalı idi. Amma çox təəssüf ki, bizdə bir çox məmur bu işi həyata keçirmək əvəzinə, heç bir iş görmür. Halbuki, bu şəxsiyyətlərə Azərbaycan Prezidentinin, dövlətinin münasibəti bəllidir. Cənab Prezident bu böyük şəxsiyyətlərin yubileylərinin keçirilməsi ilə bağlı sərəncamlar imzalayır, onların irsinin qorunması, yaşadılması ilə bağlı işlər görülməsinə fərman verir. Amma bu amil də bəzi məmurların hərəkətə keçməsinə kömək olmur. Dövlət başçısı tək-tək məsələlərə bağlı sərəncam, göstəriş verməli deyil ki. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı, eləcə də rayon icra başçıları özləri təşəbbüslər irəli sürməlidirlər".

*"Bu gün Bakıda və digər yerlərdə bolşeviklərin də ev muzeyləri qalmaqdadır, bu belədirsə..."*

F.Ələkbərli qeyd etdi ki, Bakı ilə yanaşı, Gəncədə, Naxçıvanda, Sumqayıtda və digər şəhərlərdə yaşamış Cümhuriyyət qurucularının ev muzeyləri orada da yaradılmalıdır. "Fikrimcə, böyük şəxsiyyətlərimizin ev muzeylərinin yaradılması ilə yanaşı, İstiqlal Muzeyinin də genişləndirilməsinə ciddi ehtiyac var. Burada Cümhuriyyət qurucularının da irsi olmalıdır" - deyə F.Ələkbərli vurğuladı.

***İradə SARIYEVA***

# Şou müğənnilər hətta öz həmkarlarının da ziyafətlərinə fantastik qiymətlərlə gedir

**Şou-biznesçilər hər dəqiqə səmimiyyətdən, sədaqətdən danışsalar da, təmənnasız insan olduqlarını qabartsalar da, əslində, belə deyil. Özlərini hər şəklə salsalar da, nəticədə onların əsl simaları üzə çıxır. Şou-biznesdə təmsil olunan müğənnilərin böyük əksəriyyətinin toylara fantastik qiymətə getdiyini hər kəs bilir.**



Əvvəllər bunu özləri də fəxrlə deyirdilər, amma son zamanlar müğənnilərin gəlirlərinin ödədikləri vergiyə adekvat olmadığı üzə çıxdıqdan sonra onlar öz gəlirlərini, qazanclarını ört-basdır etməyə başladılar.

Dəfələrlə müxtəlif şou proqramlarda müğənnilər özləri deyiblər ki, həmkarları onların ailə üzvlərinin ziyafətlərinə pulla qatılır, hətta çox böyük məbləğ tələb edirlər. Bu fakt var. Xalq artisti Aygün Kazımovanın populyar olmayan həmkarlarının ziyafətlərinə qonorarsız qatılmadığı haqqında mətbuatda fikirlər yer alıb. Qeyd edim ki, bir müddət əvvəl prodüsser-aparıcı Tarix Əliyev (Tolik) qonorar müqabilində həmkarlarının şənliyinə qatılan müğənnilərdən birinin Xalq artisti Aygün Kazımova olduğunu açıqlamışdı. O bildirmişdi ki, A.Kazımova müğənni Rəqsanə İsmayılovanın məclisinə qonorarla qatılıb. Deyilənə görə, Rəqsanənin qızının arzusu olub ki, Namiq Qaraçuxurlu ilə A.Kazımova onun ad gününə gəlsin, onlar da pul müqabilində bu məclisə gəlib oxuyublar.

Görünür, qonorar müqabilində öz həmkarlarının toylarına, ad günlərinə qatılmaq şou-biznesçilər üçün adi haldır. Belə olmasaydı, onlar bu hərəkətə yol verməzdilər.

Bəzən eşidirik ki, bizim şou-biznesçilər hansısa rusiyalı müğənninin toyuna qatılıblar. Görəsən, Xalq artisti Brilliant Dadaşova rusiyalı müğənni Alsunun toyunda oxumaq üçün nə qədər qonorar alıb? Hərçənd, B.Dadaşova "Alsunun toyunda tamamilə təmənnasız oxumuşam" deyir. Bəs onda nə baş verir ki, öz həmkarlarının toyuna pulsuz getmirlər. Yəqin bizim şou-biznesçilər Alsudan daha varlıdırlar, ona görə...

Bu günlərdə isə meyxanaçı Samirə Xalq artisti Miri Yusifdən giley edib ki, o onun dəvət etdiyi toya görə meyxanaçıya "qiymət oxuyub". "Xalq artisti Miri Yusifə zəng vurdum. Onu yarımsaatlıq məclisə dəvət etmək istəyirdilər. Məndən məclisin keçiriləcəyi obyektin ünvanını soruşdular. Dedim ki, nə fərqi var? O isə cavabında mənə dedi: "Fərqi çoxdur. Onun qonşuluğunda olan obyektə biz getmirik. Yarım saata 6500 manata gedirəm" - deyə Samirə deyib.

Göründüyü kimi, şou-biznesçilər bir-birinə hər hansı bir formada güzəşt etmək istəmirlər.

Bir müddət əvvəl mətbuata açıqlama verən və hazırda ABŞ-da restoran biznesi ilə məşğul olan müğənni Elariz Məmmədoğlu da deyib ki, müğənnilərin çoxu bir-birinin toyuna, qohumlarının ziyafətinə ödənişsiz getmir. Onun sözlərinə görə, özü də məclisinə gələn musiqiçilərə pul ödəyib. Belə hallar şou-biznesə xas bir xüsusiyyətdir. Müğənnilərin çoxu deyir ki, həmkarları Rusiyadan, Türkiyədən müğənni dəvət edib onlara "zəhmət haqqı" vermək imkanına malikdirsə, onlara nə üçün pul ödəməli deyillər?

Bəzi şou-biznesçilər deyirlər ki, tanınmayan sənətçilərin məclislərinə pulsuz getmək olmaz, çünki onlar populyar müğənniləri məclisə dəvət etməklə onların sayəsində reklam olunurlar (?). Əslində isə belə olmalıdır ki, bütün sənət sahələrində həmrəylik əsas prinsip kimi götürülməlidir. Amma bunu şou-biznesçilər qəbul etmirlər.

***Leyla QARAXANLI***

# Azərbaycanda 10-a yaxın Ahıllar Mərkəzi yaradılacaq - bilirsinizmi bu nə deməkdir...

**Azərbaycanda həyata keçirilən sosial layihələr cəmiyyətin bütün sferalarını əhatə edir. Cəmiyyətin elə təbəqələri var ki, onların sosial və ictimai xidmətlərlə təmin olunmasına böyük ehtiyac yarandığından, dövlət bu istiqamətdə layihələr reallaşdırır.**



***Əhməd Qəşəmoğlu:** "Ailələrdə ahıllara münasibətin dəyişdiyi bir dövrdə ölkədə yeni tipli Ahıllar Mərkəzinin yaradılmasına ciddi ehtiyac yaranıb"*

Ölkəmizdə yaşlı nəsillə bağlı həyata keçirilən qayğı siyasəti özünü bir neçə tərəfdən göstərir. Bir müddət əvvəl ahılların günərzi sosial xidmətlərlə təmin edilməsi ilə bağlı mərkəzlər yaradıldı və burada ahıllara hərtərəfli qayğı göstərilir. İndi isə ölkəmizdə Ahıllar Mərkəzinin yaradılması gündəmə gəlib.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev "Sosial xidmətlər sahəsində qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq: nailiyyətlər və perspektivlər" mövzusunda keçirilən tədbirdə bildirib ki, 10-dək Ahıllar Mərkəzinin açılışı nəzərdə tutulur: "Sosial sifarişlərin icrasında çevikliyi qorumaq çox önəmlidir. Çevikliyi qoruya bilməsək, layihələrin icra səviyyəsi ciddi şəkildə aşağı düşəcək".

S.Babayevin sözlərinə görə, ilin ilk 2-3 ayı ərzində bütün layihələr hazırlanıb təqdim olunmalıdır ki, il ərzində xidmətlər göstərilə bilsin: "Ona görə də QHT-lərlə birgə sosialyönümlü layihələrin mexanizmlərini daim təkmilləşdirməyə hazırıq. Düşünürük ki, bu sahədə çox ciddi nailiyyətlər var".

S.Babayev bildirib ki, bu layihələrin sayının artırılmasına ehtiyac dəfələrlə artıqdır: "İcra olunan layihələr çərçivəsində 10-dək Ahıllar Mərkəzinin açılışı nəzərdə tutulur. Lakin ölkənin ən azı 60 rayonunda belə mərkəzin yaradılmasına ciddi ehtiyac var. Bundan başqa, görmə qabiliyyəti zəif olan uşaqlar üçün Surdoloji Mərkəzlərin sayı cəmi 10-15 dənədir. Belə mərkəzlər hər bir rayonda olmalıdır. Günərzi mərkəzlərin sayının 70 olmasına baxmayaraq, bu mərkəzlərə ehtiyac dəfələrlə artıqdır".

Tanınmış sosioloq, professor Əhməd Qəşəmoğlu "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycanda Ahıllar Mərkəzinin açılmasına zərurət var. "Ahıllar Mərkəzinin yaradılması ölkəmiz üçün ən vacib məsələlərdən biridir. Mən özüm də bir sosioloq olaraq illərdir bu istiqamətdə təbliğat aparıram. Hətta bununla bağlı layihələr də həyata keçirmək istəyirdik. Lakin bu alınmadı. Ancaq indi dövlətin bu sahədə konkret addım atması və belə bir mərkəzlərin yaradılacağını elan etməsi çox müsbət haldır. Əvvəllər Azərbaycanda belə bir ənənə vardı ki, valideyn yaşlaşanda, xəstələnib yatağa düşəndə, digər problemlərlə üzləşəndə ailənin gənc üzvləri ona baxır, qayğı göstərirdilər. Bu, son illərə qədər belə idi və hər kəs bu ənənəyə sadiq qalırdı. Hazırda isə bu sahədə vəziyyət dəyişib, indi bir çox ailədə yaşlılara münasibət fərqlidir. Ailələrdə ahıllara münasibətin dəyişdiyi bir dövrdə ölkədə yeni tipli Ahıllar Mərkəzinin yaradılmasına ciddi ehtiyac yaranıb. Hesab edirəm ki, yeni yaradılacaq Ahıllar Mərkəzi qocalar evlərindən çox-çox fərqlənəcək, çünki qocalar evləri türmə kimi bir şeydir".

*"Dövlətin Ahıllar Mərkəzinin yaradılması ilə bağlı addımlar atmasını bir ziyalı, sosioloq kimi alqışlayır və dəstəkləyirəm"*

ABŞ-da, Skandinaviya ölkələrində Ahıllar Mərkəzinin ahılların hərtərəfli təmin olunduğu, potensialından istifadə edildiyi məkanlardır. İnsanlar yaşlaşanda həmin məkanlara getdiyini və burada onun səhhətinə, qidalanmasına ciddi əhəmiyyət verildiyini, sosial əlaqələr yaratmalarına şərait yaradıldığını deyən Ə.Qəşəmoğlunun bildirdiyinə görə, vaxtilə Hollandiyanın bu sahədə təcrübəsini xeyli araşdırıblar. "Dövlətin Ahıllar Mərkəzinin yaradılması ilə bağlı addımlar atmasını bir ziyalı, sosioloq kimi alqışlayır və dəstəkləyirəm. Bunun Azərbaycan üçün çox əlahiddə əhəmiyyəti var. Bu məsələni tez-tez tələbələrimlə də müzakirə edirəm. Həmin mərkəzlərə gedən ahılların potensialından da istifadə etmək lazımdır. Onlar özlərini atılmış kimi hiss etməməlidirlər. Ola bilsin, onların arasında hansısa bir sənətin gözəl bilicisi olar. Onun potensialından istifadə edilməlidir. Şagirdlərlə onların görüşlərini təşkil edə bilərik, bu da şagirdlər üçün faydalı ola bilər. Ahıllar Mərkəzini müasir standartlara uyğun qurmaqla yanaşı, onlara fiziki və mənəvi cəhətdən mexanizmlər yaradılmalıdır. Bu istiqamətdə işlər görmək lazımdır. Nazirlik bu istiqamətdə addım atıbsa, biz də əlimizdən gələn dəstəyi verməyə hazırıq" - deyə Ə.Qəşəmoğlu bildirdi.

***İradə SARIYEVA***

# Hələ yanmamış böyük ticarət mərkəzləri "gözü çıxmış qardaşlarından" nəsə öyrəndimi...

**Son vaxtlar ticarət mərkəzlərində baş verən genişmiqyaslı yanğınlar həmin obyektlərdə mühafizə qaydalarına zəif əməl olunması və əməl olunmaması məsələsini gündəmə gətirib. Hələ cari ilin mart ayında Bakıda "Diqlas" ticarət mərkəzində baş verən güclü yanğın zamanı Fövqəladə Hallar Nazirliyinin Dövlət Yangından Mühafizə Xidmətinin Qərargah rəisi mediaya açıqlamasında qeyd etmişdi ki, adıçəkilən ticarət mərkəzinin heç bir mərtəbəsində yanğınsöndürmə sistemi yoxdur.**




***Xəyal Məmmədxanlı:** "Binə" və "Sədərək" ticarət mərkəzlərində çalışan əməkdaşlar adi yanğın təhlükəsizliyi təlimatını bilmirlər"*

Yanğın söndürmək üçün su 2 kilometrdən gətirilib. Bu da yanğınsöndürənlərin işini çətinləşdirib. Həmçinin, o bildirib ki, obyekt rəhbərliyi tərəfindən yanğın təhlükəsizliyi qaydalarına ciddi nəzarət olunmadığından, yanğın bu cür geniş yayılıb.

Hətta mütəxəssislər də kiçik yanğının miqyasının genişlənməsi səbəbinin ticarət obyektlərində yanğından mühafizə qaydalarına ciddi riayət olunmaması ilə bağlı olduğunu düşünürlər.

Ekspertlər qeyd edirlər ki, Azərbaycanda ticarət mərkəzlərində yanğın təhlükəsizliyi qaydalarına əməlolunma səviyyəsi çox aşağıdır. Həmin obyektlərdə yanğın təhlükəsizliyinə dair texniki bazanın normalara uyğunluğuna, siqnalizasiya sisteminin, yanğınsöndürmə qurğularının, yanğın dolablarının, yanğın hidrantlarının, yanğınsöndürən balonların, ehtiyat çıxışın, təxliyyə planı və bunu göstərən lövhələrin, ehtiyat yanğın su çəninin olmasına, nasos və qurğuların daim işlək və saz vəziyyətdə saxlanmasına nəzarət edilməlidir.

Apardığımız araşdırma zamanı məlum oldu ki, Bakıda fəaliyyət göstərən iri ticarət və əyləncə mərkəzlərində yanğından mühafizə qaydalarına ciddi şəkildə riayət olunur. Orada yanğın təhlükəsizliyinə dair texniki bazanın normalara uyğunluğu, siqnalizasiya sistemi, yanğınsöndürmə qurğuları təmin edilib, təxliyyə planı və bunu göstərən lövhələr mövcuddur və digər qaydalara əməl olunur.

Ancaq digər ticarət mərkəzlərində isə yanğından mühafizə qaydalarına lazımi qaydada əməl olunmur.

Ekspert Xəyal Məmmədxanlı bildirdi ki, bu obyektlərdə heç bir texniki və yanğın təhlükəsizliyi qaydalarına əməl edilmir. İnsanlar ən kustar üsulla hazırlanmış sobalardan və texnikalardan istifadə edirlər: "Binə" və "Sədərək" ticarət mərkəzlərində çalışan əməkdaşlar adi yanğın təhlükəsizliyi təlimatını bilmirlər. O baxımdan, ticarət obyektlərindəki problem ciddidir. Ona görə də insanlarımız məsuliyyət hiss edib, bu məsələlərə həssas yanaşmalıdırlar".

Ekspert qeyd etdi ki, FHN bir az ciddi nəzarət edən kimi hamı şikayət edərək, onları çörək pulu qazanmağa imkan verməməkdə ittiham etməyə başlayır: "Ancaq sahibkar öz malına, mülkünə məsuliyyət hiss etməlidir. Dövlət gəlib onların malını qorumalı deyil axı? Siz təsəvvür edin, "Sədərək" və "Binə" ticarət mərkəzlərinin həresində gün ərzində 200-300 min insan olur. Orada hansı təhlükəsizlikdən danışmaq olar? Bu yerlərdə hər şey taleyin ümidinə qalıb. Halbuki, insanların kütləvi toplandıqları yerlərdə çox ciddi nəzarət olmalıdır.

*"İri ticarət mərkəzlərinin yanğından mühafizəsi üçün, ilk növbədə, həmin obyektlərdə yanğın təhlükəsizliyinə nəzarət gücləndirilməlidir"*

Ona görə də obyektlərdə yanğın təhlükəsizliyi standartlarına riayət olunmalı, malların rəsmi uçotu aparılmalı, şəffaflıq təmin edilərək rəsmi fəaliyyət həyata keçirilməlidir".

X.Məmmədxanlı onu da əlavə etdi ki, iri ticarət mərkəzlərinin yanğından mühafizəsi üçün, ilk növbədə, həmin obyektlərdə yanğın təhlükəsizliyinə nəzarət gücləndirilməlidir: "İri ticarət obyektlərində çox ciddi yanğın təhlükəsizliyi tələbləri olmalıdır. Orada işləyən hər bir insan təlimatlandırılmalıdır ki, yanğından necə qorunmalı və evakuasiya olunmalıdır. Sahibkarların özlərinin də marağında olmalıdır ki, onların dükanlarındakı malların uçotu aparılsın. Yanğın təhlükəsizlik tələbləri ən yüksək səviyyədə qorunmalıdır. Orada yaşayan, işləyən, çalışan hər kəs yanğın təhlükəsizliyi təlimatını bilməlidir. Kustar üsulla hazırlanmış sobalardan, elektrik naqillərindən, texnikadan istifadə olunmamalıdır".

***Günel CƏLİLOVA***

№ 229 (4127) ■ Qiymәti: 40 qәpik

# BAKI XӘBӘR

www.baki-xeber.com

24 DEKABR 2019-cu il



# Alimlәr göbәlәklәri gәlәcәyin super qidası elan etdi

**Araşdırmaçılar İrlandiyada olan dünyanın әn böyük göbәlәk fabrikindә apardıqları araşdırmalarla birlikdә göbәlәklәrin sahib olduğu qida dәyәrlәrini artıra bilәcәklәrini açıqlayıblar.**

Alimlәr göbәlәyin gәlәcәyin super qidası olacağını düşünürlәr. İrlandiyanın Monaqan qraflığı dünyanın әn böyük göbәlәk istehsalçılarından birinә evsahibliyi edir. İstehsalçılar göbәlәk fabriklәrinin dә eynilә göbәlәklәr kimi gәlәcәkdә çoxalacağını iddia edirlәr. "BioRescue" layihәsi daxilindә İrlandiya 40-dan çox elm insanının göbәlәklәr vә tәbii gübrәlәr üzәrindә әtraflı şәkildә araşdırmalar apardığı laboratoriyalara malikdir. Bu araşdırmalar bәzi nәticәlәr әldә etmәyә imkan verdi. "MBio" adlı layihәdә iştirak edәn adlardan Peter Korkoran bu barәdә belә deyib: "Göbәlәklәrin özlәrinә aid bir krallığa sahib olduğuna inanırıq. Heyvanlar vә bitkilәrin arasında özlәrinә xüsusi bir bölgәyә sahibdirlәr". "MBio" layihәsi çәrçivәsindә bioloq Cudi Uilson da göbәlәklәrin nә qәdәr faydalı olduğuna dair bәnzәr bir şәrh verdi: "Göbәlәklәr sağlamlığınız üçün olduqca faydalıdır. Yağ nisbәtinin aşağı olması ilә yanaşı, lif vә zülal baxımından da zәngin bir qidadır. Bundan әlavә, göbәlәklәr minerallar vә vitaminlәri özündә ehtiva edir". Göbәlәklәri super qida olaraq adlandıran Korkoran, sözlәrinә belә davam edib: "Eynilә dәrimizdә olduğu kimi, göbәlәklәr dә gün işığından D vitamini әldә edәr. Bu müddәti tәbii yollarla reallaşdırması isә göbәlәklәri veqan formasında bir D vitamini mәnbәyi halına gәtirir. Dünya daxilindә D vitamini çatışmazlığının olduqca geniş yayıldığını nәzәrә alsaq, göbәlәklәr bu problemi hәll etmәk üçün әn yaxşı yollardan biridir".



## İş rejimi vә şәhәr hәyatından yorulan cütlüyün qәribә qәrarı...

**Monotonluqdan sıxılan cütlük gәzinti avtobusu ilә xәyallarını gerçәklәşdirib.**

"Milli.Az" xәbәr verir ki, İzabella vә Antonio adlı cütlük iş rejimi vә şәhәr hәyatından yorulduqları üçün macәra axtarışına çıxıb. Cütlük evlәrini sataraq, pullarını yığıb dünya sәyahәtinә çıxmağa qәrar verib. Xoşbәxt hәyatın xәyalını quran evlilәr sәyahәt üçün nәzәrdә tutulmuş balaca avtobus alıblar. Belә ki, tәrәflәrin hәr ikisi dә mühәndis olduğu üçün sәyahәt edәcәklәri avtobusu uzun müddәt yaşaya bilәcәklәri ev formasında dizayn ediblәr. Onların dediyinә görә, avtobusu ev halına gәtirmәk üçün 41 gün vaxt sәrf etmәli olublar. Avtobusda soyuducu, ayaqyolu, qaz plitәsi vә çarpayı olduğuna görә cütlük uzun müddәt sәyahәt edәrәk yaşamağı düşündüklәrini deyib.

## Bu qәsәbәdә ölmәk qadağandır...

**Norveçin Longyearbyen adlı kiçik qәsәbәsindә ölmәk qadağan edilib.**



"Milli.Az" xәbәr verir ki, Norveçin dağәtәyi kiçik qәsәbәsindә 1500 nәfәrlik әhalisi olan әrazi çox soyuq olduğuna görә ölmәk qadağan olunub. 1917-ci ildә qәsәbә әhalisi keçici xәstәlik sәbәbindәn sakinlәrinin çoxunu itirib. Ehtimal olunur ki, hәmin virusun daşıyıcıları qәsәbәnin mәzarlığında dәfn olunub. Belә ki, qәsәbәdә halı pislәşәn olarsa, helikopter vasitәsilә başqa şәhәrә köçürülür vә son günlәrini orada başa vurur. Kimsә bәsbәxt hadisә qurbanı olsa belә, hәmin qәsәbәdә dәfn olunmasına icazә verilmir. Üstәlik, Longyearbyen qәsәbәsindә heç vaxt günәş batmır. Lakin günәşin batmamasına baxmayaraq, qәsәbәdә heç vaxt mülayim hava şәraiti olmur.

### Elan

Daşınmaz Әmlakın Dövlәt Reyestri Xidmәti tәrәfindәn Rzayev Mübariz Ağadadaş oğlunun adına Bakı şәhәri, Nәrimanov rayonu, Hәsәnoğlu küçәsi, ev 16A, mәnzil 24 ünvanı üzrә 56,0 kvadratmetr sahәsi olan mülkә verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Bir qәdәr gözlәmәk lazımdır: yeni başlanğıclar, cәsur eksperimentlәr vә yaradıcılıq axtarışları üçün әlverişli vaxt bir qәdәr sonra başlayacaq. Hәlәlik isә diqqәtinizi darıxdırıcı, bununla belә, diqqәt tәlәb edәn cari işlәrә yönәldin.



**Buğa** - Yaxınlarınızla dil tapmaq asan olmayacaq: onların susqun narazılığını, sizin plan vә ideyalarınızla razılaşmamalarını hiss edәcәksiniz. İndi әsas mәsәlә inciklikәrdәn yayınmaqdır.



**Әkizlәr** - Şәxsi hәyatda isә mәnfi tendensiyalar üstünlük tәşkil edir. Ona görә dә ehtiyatlılıq pis olmazdı. Vәdlәr vermәk, reallaşması çәtin olan hansısa planları müzakirә etmәk mәslәhәt deyil.



**Xәrçәng** - Maraq oyatmayan günlәrdәn biridir. Çox şeyә nail olmaq olar, amma siz heç nә istәmirsiniz. Yaranan imkanlara filosofcasına sakitliklә, bәzәn isә açıq etinasızlıqla baxırsınız.



**Şir** - Bu gün çoxlu imkanlar açacaq. Amma onlardan yalnız birindәn istifadә etmәk olar. Bir sözlә, seçim etmәli olacaqsınız. Özü dә seçim etmәk asan deyil. Peşә sahәsindәki fikir ayrılıqlarına sakit yanaşın.



**Qız** - Bu gün zövqünüzә uyğun olmayacaq, olduqca çoxlu çәtinlik vә birmәnalı olmayan hadisәlәr gözlәnilir. Eyham vә üstüörtülü söhbәtlәrdәn xoşunuz gәlmәsә dә, bu gün onlardan qaçmaq mümkün olmayacaq.



**Tәrәzi** - Bu gün yaradıcı axtarışlar, qeyri-standart vәzifәlәrin hәlli üçün münasibdir. Әnәnәvi işlәrlә qane olmayın, hәtta ilk baxışda ehtiyac hiss etmәsәniz belә, yeni işlәrә girişin. Tәhsillә mәşğul olmaq olar.



**Әqrәb** - Birmәnalı olmayan vә dolaşıq vәziyyәt yaranacaq. Ondan baş çıxarmaq gözlәdiyinizdәn dә çәtin olacaq. Ziddiyyәtli mәlumat alacaqsınız. Sizә faktları tәhlil etmәk vә düzgün nәticә çıxarmaq üçün vaxt lazımdır.



**Oxatan** - Rәğbәt asanlıqla yaranacaq. Çoxları tәәccüblә hiss edәcәklәr ki, әvvәllәr ümumiyyәtlә bәyәnmәdiklәri insanlara doğru meyl edirlәr. Yeni münasibәtlәr zәngin vә parlaq olacaq, amma davamlılığı gözlәnilmir.



**Oğlaq** - Әgәr bu gün işgüzar әmәkdaşlıq başlasa, uzun müddәt davam edәcәk vә mәhsuldar olacaq. Bu (daha çox davamlılıq anlamında), hәyatınızı bәzәyәcәk yeni romana da aiddir.



**Dolça** - Uğursuzluqlar vaxtı gәldi. Bu gün işlәriniz gәtirmәyәcәk. Bürcün nümayәndәlәri çәtin vәziyyәtlәrә düşәcәk, aşılmaz çәtinliklәrlә qarşılaşacaqlar. Özü dә kömәyә heç kim tәlәsmәyәcәk.



**Balıqlar** - Çox әlverişli gündür. Gözlәdiyinizdәn dә böyük uğurlar әldә edәcәksiniz. Yeni kәşflәr, uğurlu eksperimentlәr mümkündür. Yaradıcı yanaşma sizә bir çox problemlәrin hәllindә yardım edәcәk.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## İş adamı 271 qızı evlәndirdi



**Hindistanda 271 qız xeyirxah iş adamın dәstәyilә evlәnib.**

"Milli.Az" "Qafqazinfo"ya istinadәn xәbәr verir ki, kütlәvi evlilik mәrasimi Surat şәhәrindә baş verib. Mәrasimin bütün xәrclәrini Mahes Savani adlı iş adamı öz üzәrinә götürüb. Toy mәrasimi iki gün davam edib. Qeyd edәk ki, Hindistanda qız tәrәfindәn bәyә bahalı hәdiyyәlәr verilir. Bu sәbәbdәn bir çox imkansız qadın evlәnmәkdә çәtinlik çәkir. Savani indiyәdәk 3172 qızın evlәnmәsinә kömәk edib.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.